Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 246 (7973) CÜMƏ AXŞAMI, 1 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# İlham Əliyevin mükəmməl “multikulturalizm və tolerantlıq modeli”

## Azərbaycanın bu sahədəki təcrübəsi qlobal miqyasda təkmil nümunə kimi qəbul edilir

**Son illər Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həm regionda, həm də beynəlxalq miqyasda əldə etdiyimiz uğurlar hər sahəyə olduğu kimi, ictimai-siyasi və sosial həyatla birbaşa əlaqəsi olan din sahəsinə də müsbət təsirini göstərməkdədir.**

Bu gün hər bir Azərbaycan vətəndaşı Konstitusiyanın, “Dini etiqad azadlığı haqqında” qanunun ona verdiyi imkanlardan istifadə edərək etiqad azadlığını tam yaşaya bilir.

Ölkədə fəaliyyət göstərən konfessiyalar arasında nəinki hər hansı qarşıdurma müşahidə olunmur, əksinə, onlar arasındakı münasibətlər artıq birgə əməkdaşlıq mərhələsindən yeni dövrə - qarşılıqlı yardımlaşma, empatiya mərhələsinə keçmişdir. Biz bunu hər hansı dini konfessiyanın ibadət evi inşa edərkən digər konfessiyaların ona dəstək verməsində və yardım göstərməsində əyani şəkildə görə bilərik.

Məsələn, 2003-cü ildə Bakıda Avropa yəhudiləri üçün sinaqoq tikilərkən ölkədəki digər dini konfessiyalar həm mənəvi, həm də maddi dəstək göstərmişdilər. Yaxud Bakıda katolik kilsəsi inşa edilərkən Qafqaz Müsəlmanları İdarəsi, Dağ və Avropa yəhudiləri, eləcə də pravoslav kilsəsi bir araya gələrək vəsait toplamış və inşaat işinə maddi yardım etmişdilər. Əlbəttə, belə unikal faktlar bu gün dünyanın bir çox ölkəsində müşahidə etdiyimiz vəziyyətin - nəinki fərqli dinlərin mənsublarının, hətta eyni dinin müxtəlif məzhəblərinin nümayəndələrinin bir-birinə az qala düşmən gözü ilə baxması fonunda olduqca ürəkaçan və qürurvericidir. Şübhəsiz, bu gün müasir Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm dostluq və qardaşlıq ələqələrinin, başqa sözlə, multikulturallığın ən ideal modelinin formalaşmasında onların ortaq taleyə sahib olmaları da mühüm rol oynamışdır. Tarix boyu bu torpaqlarda məskunlaşmış müxtəlif xalqların və etnik qrupların nümayəndələri qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş, dini-mədəni baxışlarındakı fərqlərə baxmayaraq, mövcud şərait onları bir-birinə daha da yaxınlaşdırmışdır.

### Sağlam genetika və möhkəm siyasi iradə

Müasir Azərbaycanda tolerantlıq hər ötən gün daha da möhkəmlənən, təkcə cəmiyyətdə deyil, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində öz əksini tapan dəyərə çevrilmişdir. Bunun əsas səbəblərindən biri milliyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəalarının Azərbaycan Konstitusiyasında, “Dini etiqad azadlığı haqqında” qanunda təsbit olunmasıdır. Respublikamızda tolerantlıq, dini dözümlülük kimi ali dəyərləri möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır.

Eyni zamanda, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün dövlət tərəfindən lazımi şərait yaradılması, milli azlıqların öz bayramlarını qeyd etməsi, hətta həmin günlərdə dövlət başçısından təbrik almaları, əhalinin böyük əksəriyyətinin müsəlmanlardan ibarət olsa da, dövlətimizin respublika ərazisində yaşayan bütün dinlərin nümayəndələrinə diqqət göstərməsi, onlara müsəlmanlarla bərabər hüquqlar verməsi bugünkü mənzərənin formalaşmasının əsas səbəblərindəndir. Bir sözlə, hər hansı xalqın tolerant düşüncəyə sahib olması onun keçmişi ilə nə qədər bağlıdırsa, qorunub saxlanılması ona rəhbərlik edən şəxslərin iradəsindən bir o qədər asılıdır. Bu mənada birmənalı şəkildə vurğulamaq olar ki, ölkəmizdə yaşayan milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, din, tarix və adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi işi ümummilli liderin şəxsi iradəsi və təşəbbüsü əsasında qanuni müstəviyə çıxmış, dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Ulu öndər deyirdi: *“Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər də zəngin olar”.*

*Ardı 3-cü səh.*

## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Əbdüləziz Buteflikaya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - İnqilab Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## *Əli HƏSƏNOV:* “Prezident İlham Əliyev şair Mikayıl Müşfiqlə bağlı məsələni şəxsi nəzarətinə götürüb”



Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib.

Cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcəkdir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcəkdir.

Bu haqda AZƏRTAC-a Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məlumat verib.

Əli Həsənov onu da qeyd edib ki, cənab Prezident həmişə Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətlə yanaşıb. Bunun bariz nümunəsi kimi dövlət başçısının 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində keçmiş Statistika dairəsi adlanan yerdə Mikayıl Müşfiqin heykəlinin demontajına münasibətini göstərmək olar. O vaxt cənab Prezident məsələnin araşdırılması, günahkarların cəzalandırılması, heykəlin dərhal öz yerində bərpa olunması ilə bağlı tapşırıq vermiş, həmin göstərişin qısa zamanda icra olunmasından sonra da heykəli ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdu.

Əli Həsənov bildirib ki, Mikayıl Müşfiqin qalıqlarının aşkar olunması barədə yayılan məlumatlar hazırda dövlət başçısının nəzarətindədir. Əminliklə demək olar ki, məsələnin ciddi araşdırılması ilə bağlı qısa zamanda müvafiq tədbirlər görüləcək və nəticə barədə ictimaiyyətə məlumat veriləcəkdir.

## Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub

Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının mətbuat üçün açıqlamasında bildirilir.

Oktyabrın 31-də keçirilən brifinqdə açıqlamanı təqdim edən Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Şıxəliyev deyib ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub.

*Ardı 5-ci səh.*



# Parlament milli inkişaf strategiyasının sürətlə reallaşmasına böyük töhfələr verir

## V çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdən ötən 3 il ərzində qəbul edilən qanunlar respublikamızın tərəqqisinə, nüfuzunun yüksəlməsinə və dövlət siyasətinin uğurla həyata keçirilməsinə xidmət edib

**İlham ƏLİYEV:**

Parlamentin Azərbaycan cəmiyyətindəki rolu artır, artmalıdır və bu da təbiidir. Bu, bir Prezident kimi məni çox sevindirir. Çünki parlamentin üzərinə düşən vəzifələr yerinə yetirilərsə, əlbəttə, cəmiyyətimizin hərtərəfli inkişafı təmin olunar.

Azərbaycanda parlamentarizmin çox yaxşı ənənələri yaranmışdır. Milli Məclis tərəfindən qəbul edilmiş qərarlar ölkəmizin inkişafına xidmət göstərir. Parlament siyasi mübarizənin mədəni, sivil qaydalarla aparılmasına töhfəsini verir.

Mənim həyatımın səkkiz ili deputat kimi bu binada keçibdir. Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir. Burada əyləşənlərin bir çoxu ilə biz birlikdə işləmişik, çalışmışıq və bu gün də işləyirik.

*Bax: səh. 4*

## Ermənistanda müxalifət vətəndaş müharibəsinə hazırlaşır

### *Sabiq komanda Paşinyana qarşı mübarizəni qiyama çevirməyə çağırış etdi*

**Ermənistanın ictimai-siyasi həyatında baş verən son olaylar burada iqtidar və müxalifət arasında qarşıdurmanın getdikcə daha kəskin xarakter almaqda olduğunu üzə çıxarır.**

Ən azından o baxımdan ki, parlamentdə həlledici səs çoxluğuna malik olan müxalifət Ermənistanın baş naziri vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyanın hökumət rəhbəri vəzifəsinə gəlməsini əngəlləyir.

Xatırladaq ki, bundan əvvəl keçirilən səsvermə zamanı Ermənistan parlamenti xüsusi iclasında Nikol Paşinyanın baş nazir postuna namizədliyini rədd edib. Paşinyanın namizədliyinin lehinə deputatların heç biri səs verməyib. “Respublika” və “Daşnaksütyun” partiyaları, həmçinin “Sarukyan bloku” səsvermədə iştirak etməyib.

### Siyasi gərginlik daha da yüksəlir

Hakimiyyətə yaxın “Yelk” fraksiyasının rəhbəri Lena Nazaryan Paşinyanın baş nazir postuna namizədliyinin parlamentdən keçməməsinin qanunverici orqanın buraxılması prosesini başlamaq üçün əsas yaratdığıın bildirib.

*Ardı 7-ci səh.*



## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1194-VQD və 1211-VQD nömrəli qanunları) 102.1.14.6-cı maddəsində "aspirantlara (magistrlərə)" sözləri "doktorantlara və magistrlərə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1250-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1250-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412) 40-1.4.1-ci maddəsində "siqaret" sözü "tütün" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1263-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1263-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri olan Şəkinin tarixi hissəsini əhatə edən "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu çoxəsrlik tarixə malik abidələr və unikal mədəniyyət nümunələri ilə zəngin bir ərazidir.

Son illərdə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində həyata keçirilmiş tədbirlər nəticəsində "Aşağı Karvansaray" Kompleksi, "Şəkixanovların evi", M.F.Axundzadənin ev-muzeyi, qədim küçələrin bir hissəsi bərpa olunmuş, müəyyən abadlıq işləri görülmüşdür.

Şəki şəhəri 2008-ci ildə Dünya Tarixi Şəhərlər Liqasının üzvü seçilmiş, 2010-cu ildə Azərbaycanın Sənətkarlıq Paytaxtı elan edilmiş, 2017-ci ildə UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil olunmuşdur.

Şəkinin turistlər üçün cəlbedici məkana çevrilməsi əsrlərin sınağından çıxmış, təbii təsirlərə məruz qalmış tarix və mədəniyyət abidələrinin konservasiyası və bərpası, ənənəvi xalq sənətkarlığı növlərinin dirçəldilməsi, istirahət-turizm infrastrukturu obyektlərinin və xidmət sahələrinin yaradılması işlərinin sürətləndirilməsini şərtləndirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üç ay müddətində:

1.1. "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınmasını və vahid məlumat bazasının yaradılmasını təmin etsin;

1.2. "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin uzunmüddətli qorunması, konservasiyası, bərpası və məqsədyönlü istifadəsi ilə bağlı konsepsiyanın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1215-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 171) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.0.1-ci yarımbənd ləğv edilsin.
2. 5.9-cu bəndə "açıla" sözündən sonra ", yoxlanıla" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408; 2014, № 2, maddə 86; 2016, № 1, maddə 6; 2017, № 3, maddə 327; 2018, № 1, maddə 8) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 132-ci maddənin birinci hissəsinin səkkizinci abzasında, 161-ci maddənin birinci hissəsinin dördüncü abzasında "papirosçəkmə" sözü "tütünçəkmə" sözləri ilə əvəz edilsin.

2. 172-ci maddənin birinci hissəsində, 182-ci maddənin ikinci hissəsinin ikinci abzasında, 187-ci maddənin ikinci hissəsinin dördüncü abzasında, 188-ci maddənin birinci hissəsində, 255-ci maddənin ikinci hissəsində, 288-ci maddənin dördüncü hissəsinin beşinci abzasında "papiros" sözü "tütün" sözü ilə əvəz edilsin.

3. 230-cu maddənin dördüncü cümləsində "Papiros" sözü "Tütün" sözü ilə əvəz edilsin.

4. Həmin nizamnamənin "Hauptvaxt haqqında" 4 saylı əlavəsinin 27-ci maddəsinin üçüncü abzasında, 33-cü maddəsinin birinci hissəsində "papiros" sözü "tütün" sözü ilə, 31-ci maddəsinin üçüncü hissəsində "Papiros" sözü "Tütün" sözü ilə əvəz edilsin.

5. Həmin nizamnamənin "Qarovul otağının avadanlığı" 11 saylı əlavəsinin 1-ci maddəsinin ikinci hissəsində "papirosçəkmə" sözü "tütün çəkmə" sözləri ilə, 7-ci maddəsində "Papirosçəkmə" sözü "Tütün çəkmə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1265-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1265-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,04 milyon (on səkkiz milyon qırx min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2018-ci il*

## Gəncə Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Aslanova Emma Əli qızı
Cavadov Asif Şəmil oğlu
Fətəliyeva Gülsüm İsa qızı
Kərimzadə Pərvin Orxan qızı
Quliyev Əliqulu Umud oğlu
Məmmədov Fəxrəddin Həsən oğlu
Yusibov Mübariz İmran oğlu

**"Əməkdar mühəndis"**

Həsənov Fəxrəddin Şərif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2018-ci il*

## Gəncə Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Alverdiyev İsfəndiyar Cavid oğlu
Əfəndiyev Üzeyir Qiyas oğlu
Əhmədova Sevda Zahid qızı
Həsənov Vasif İlkan oğlu
Xurşudov Şahin Nadir oğlu
Kərimov Heydər Nəsib oğlu
Kubışov İlqar Nadir oğlu
Qurbanov Qulu Baba oğlu
Məmmədov Mərdan Mürsəl oğlu
Məmmədova Vəfa Fərman qızı
Novruzov Vaqif Seyfəddin oğlu
Tağıyev Şahin Tağı oğlu
Vəliyev Murad Turab oğlu
Yusifov Elturan Cahad oğlu
Zeynalov Zakir Mikayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2018-ci il*

## "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 860, 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 9, maddə 1643) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissədə "dövlət orqanları" sözlərindən sonra ", dövlətə məxsus olan hüquqi şəxslər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər (bundan sonra - dövlət qurumları)" sözləri əlavə edilsin və "dövlət orqanlarının" sözləri "dövlət qurumlarının" sözləri ilə əvəz edilsin.

2. 3.2-ci bənddə ismin müvafiq hallarında "dövlət orqanları" sözləri "dövlət qurumları" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2018-ci il*

2003 2018 **Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi**











# İlham Əliyevin mükəmməl "multikulturalizm və tolerantlıq modeli"

## Azərbaycanın bu sahədəki təcrübəsi qlobal miqyasda təkmil nümunə kimi qəbul edilir

*Əvvəli 1-ci səh.*

### Azərbaycançılıq: vahid, bölünməz Azərbaycanın yeganə düsturu

Ulu öndərin formalaşdırdığı azərbaycançılıq ideologiyasının təməl sütunlarını da məhz bu yanaşma tərzi təşkil edir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev müəllifi olduğu "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" kitabında qeyd edir ki, *"ideologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir. "Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir. ...Azərbaycançılığın mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. O, ənənəvi mifləri və rəmzləri özündə birləşdirir, lakin bunlardan milli dövlətin simasında yeni fenomenlərin qorunması və əsaslandırılması üçün istifadə edir. Azərbaycançılığın gücü ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir. Şübhəsiz ki, öz birliyinə mənsubiyyət hissi həyatın özünə də məna və əhəmiyyət verir, qarşılıqlı məsuliyyət və qarşılıqlı əlaqə hissini möhkəmləndirir və beləliklə, tənhalıq və qəriblik hissini azaldır. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır".*

Azərbaycançılıq məfkurəsinin dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyasının durduğunu vurğulayan akademik bildirir ki, bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir.

Ömrünün 30 ildən artıq dövrünü doğma vətəni Azərbaycanın, xalqının rifahı üçün fəda etmiş ulu öndər Heydər Əliyev azərbaycançılıq məfkurəsi ilə cəmiyyətin bütün sahələrində olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində, dini-mənəvi dəyərlərinin qorunmasında, dini tolerantlığın möhkəmləndirilməsində müstəsna xidmətlər göstərməklə yanaşı, bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsini miras qoymuşdur. Dini dözümlülüyü, tolerantlığı daim dəstəkləyən ümummilli lider gənclərimizin bu ruhda tərbiyə olunmasının vacibliyini hər zaman vurğulayırdı. O bilirdi ki, yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyəsi önəmli məsələdir. O, həm də bilirdi ki, müasir dövrdə bu iş çox mürəkkəb və çətindir. Ancaq ulu öndər xalqımızın bu ali keyfiyyəti heç vaxt itirməyəcəyinə əmin idi.

### Yenidən Bakı və niyə məhz Bakı?

Dahi liderin bütün sahələr üzrə siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, islam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülmüşdür. Dövlət başçımız islam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalamışdır. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, bu istiqamətdə çoxsaylı beynəlxalq konfranslar keçirməsində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilmişdir. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması, həmçinin xalqımızın mədəni dəyərlərini, ümumdünya sivilizasiya prosesi ilə qarşılıqlı əlaqəsini təbliğ edən festival və müsabiqələrin, idman yarışlarının məhz respublikamızda keçirilməsi tamamilə məntiqəuyğundur. Bugünlərdə altıncısı yekunlaşan Bakı Beynəlxalq Humanitar Forumu bu qəbildən olan, aktual, ümumbəşəri, humanitar məsələlərin müzakirə edildiyi nüfuzlu tədbirlərdəndir.

2011-ci ildən keçirilən və ənənə halı alan forum hər dəfə 100-ə yaxın ölkədən 500-dən çox tanınmış ictimai-siyasi xadimi, görkəmli elm, mədəniyyət və incəsənət nümayəndəsini birləşdirir, müxtəlif ölkələrin, regionların və nəsillərin nümayəndələrinin ünsiyyət qurmasına, diskussiya aparmasına və ümumi nəticələrə






gəlməsinə şərait yaradır. Belə vacib tədbirə məhz Bakının evsahibliyi etməsi forumun əhəmiyyətini daha da artırır. Çünki paytaxtımız müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu bir məkandır, Azərbaycan torpağı bütün dövrlərdə tolerantlığı və qonaqpərvərliyi, Azərbaycan xalqı isə yaratmaq və birləşdirmək bacarığı ilə tanınmışdır. Çünki bu torpaqlarda insan amili hər zaman yüksək yerdə dayanmışdır, insana yüksək dəyər verilmişdir. Prezident İlham Əliyevin Azərbaycanın qarşısında duran vəzifə neft faktorunu insan kapitalına çevirmək olduğunu dəfələrlə söyləməsi də məhz bu xarakterik keyfiyyətimizdən irəli gələn dərin mənalı ifadə tərzidir.

Dövlət başçımızın bu ideyasının da təməlində Azərbaycanın multikulturalizm modelinin mühüm bir xüsusiyyəti dayanır və onun həyata keçirilməsində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd etmək lazımdır. Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə Azərbaycanın multikulturalizminin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir və layihələr həyata keçirmişdir. Bu layihələr çərçivəsində dini abidələrdə, ziyarətgahlarda, tikililərdə təmir-bərpa işləri aparılır, müxtəlif konfranslar və sərgilər təşkil edilir.

Fondun Fransanın Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarında kilsələrin təmirində, eləcə də Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

### Multikulturalizm siyasəti üçün üç prinsip

Avropanın multikulturalizmin iflasa uğradığını qəbul və bəyan etdiyi - hətta bunu dövlət xadimlərinin dilindən də eşitmişik - müasir dövrdə dövlətimizin bu istiqamətdə nümayiş etdirdiyi nümunəvi mövqenin xarici qonaqlar, bu sahənin ekspertləri, araşdırmaçılar, sosioloq və politoloqlar tərəfindən rəğbətlə qarşılanması bir daha doğru yolda olduğumuzu sübut edir. Bu fakt həm də onu göstərir ki, Qərb intellektualları özləri hələ multikulturalizm anlayışını detallı şəkildə müəyyənləşdirməmişlər. Yaxud bu terminə öz dünyagörüşləri, siyasi baxışları, həmçinin seçkiqabağı platformalarının "dekorasiyası" qismində yanaşmışlar. Halbuki Azərbaycan nümunəsi də təsdiq edir ki, multikulturalizm siyasətinin əsasında üç əsas prinsip dayanmalıdır:

*- dövlət bütövlükdə plüralizmi, o cümlədən mədəni plüralizmi təmin etməlidir (bu, vətəndaş cəmiyyətinin ən mühüm göstəricisidir);*

*- hətta ən kiçik mədəni qrupların sosiallaşmasına mane olan əngəllər aradan qaldırılmalıdır;*

*- müxtəlif mədəniyyətlərin yenidən dirçəlməsi və inkişafı dəstəklənməlidir.*

Bu tezislər həm də o deməkdir ki, multikulturalizm müasir qloballaşma şəraitində mədəni dəyərlərin demokratiyasıdır, bərabərhüquqluluğudur və tolerantlıq onun xarakterik xüsusiyyətidir. BMT-nin keçmiş baş katibi, hazırda isə Beynəlxalq Frankofoniya təşkilatının Baş katibi Butros Qalinin təbirincə desək: *"Biz dayanmadan qloballaşmadan bəhs edirik. Bu, həqiqətən də, mövcud gerçəklikdir. İqtisadiyyat, maliyyə, kommunikasiya qloballaşır. Dünya ekologiya, mütəşəkkil cinayətkarlıq sahələrində qlobal miqyas alan problemlərlə üzləşir, qlobal epidemiyalarla mübarizə aparır. Bizdə çatışmayan demokratiyanın qloballaşması, onun beynəlxalq münasibətlərdə genişlənməsidir. Buna nail olmağın ən yaxşı üsulu mədəni müxtəlifliyin dəstəklənməsidir ki, mən bunu multikulturalizm adlandırıram".*

Ümumiyyətlə, son illər sosial elmlər sahəsində çalışan müəlliflərin mübahisələrinə səbəb olan elmi debatlar arasında sivilizasiyaların insan şüurunun, cəmiyyətlərin, eləcə də dövlətlərin inkişafında rolunun mühümlüyü mövzusu xüsusi yer tutur. Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məşhur məqaləsindən sonra bu nəzəriyyə təkcə alimlər deyil, nüfuzlu siyasətçilər üçün də prioritet məsələyə çevrildi.

Faktiki olaraq son zamanlar biz dünya ölkələrinin böyük bir qismində islamafob faktları, dini simvollara qarşı hücumları tez-tez müşahidə edirik. Təəssüf ki, islamofobiya, öz növbəsində, daha bir neqativ təzahürün - müsəlman ölkələrinin milli maraqlarına cavab verməyən vesternfobiya hallarının da genişlənməsinə gətirib çıxarır. Bu isə çox təhlükəli tendensiyadır...





### Özünəinamın təcəssümü

Ölkə Prezidenti cənab İlham Əliyevin VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində dediyi kimi: *"Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Vİ dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da, Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir".*

Son illər müxtəlif istiqamətli beynəlxalq tədbirlərin, konfransların, idman yarışlarının niyə məhz paytaxtımızda təşkil olunmasının səbəblərini yuxarıda qeyd etmişdik. O səbəblərdən biri də odur ki, Azərbaycan xalqı və dövlətimizin rəhbərliyi özünə əmindir, hansı addımlar atmaq lazım olduğunu çox yaxşı bilir. Bu mötəbər tədbirin Bakıda keçirilməsi də məhz bu əminliyin göstəricisidir.

Prezident İlham Əliyev VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimindəki öz dərin məzmunlu çıxışı ilə göstərdi ki, bu kimi tədbirlər həm də ölkəmizlə bağlı həqiqətlərin, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Ermənistanın nizamlama prosesinə aqressiv, destruktiv yanaşması ucbatından 25 ildir həll edilmədiyini beynəlxalq ictimaiyyətə bir daha bəyan etmək üçün çox yaxşı vasitədir. Bir sözlə, bu cür tədbirlərə evsahibliyi etməyimiz də ideoloji qələbəmizdir və ermənilərin təcavüzkar siyasətinin ifşa olunmasında, Azərbaycanın həyat tərzinin, siyasətinin təcavüzkar ölkədən qat-qat yüksək olduğunu nümayiş etdirməkdə böyük rol oynayır.

Şübhəsiz ki, əvvəlki illərdə olduğu kimi, geridə qalan VI Bakı Beynəlxalq Humanitar Forumunda da müzakirəyə çıxarılan məsələlər bəşəriyyətin üzləşdiyi çağırışlara cavab verməsi baxımından mühüm töhfələri ilə yadda qalacaqdır. Çünki müxtəlif peşə və ixtisas sahiblərinin, xüsusilə də mədəniyyət sahəsini təmsil edən insanların Bakıda bir araya gələrək mühüm məsələləri müzakirə etməsi böyük nəticədir.

*Bir sözlə, bu gün Azərbaycan dövləti təkcə ölkədaxili problemlərlə məşğul deyil, o, həm də xarici ölkələrdə mədəni quruculuq işi ilə məşğul olur, yol göstərir, müxtəlif problemlərin həlli üçün yol xəritəsi çəkir. Çünki genetik kodu mərhəmət, humanizm, ədalət kimi bəşəri keyfiyyətlərlə zəngin olan biz azərbaycanlılar hər zaman daha hissiyyatlı, başqalarının acı talelərinə daha həssas yanaşmışıq, bizə ikili standartlarla yanaşan dünyaya açıq olmuşuq, ümumbəşəri ideyaları, dəyərləri doğma şəkildə qəbul etmişik.*

***Mübariz QURBANLI,***
***Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri***

**Bu gün V çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərin 3-cü ili tamam olur. 2015-ci il noyabrın 1-də keçirilən parlament seçkiləri ölkəmizin demokratik inkişafının növbəti nümayişi oldu.**

**Seçicilər layiq bildikləri namizədləri dəstəkləyərək hazırki parlamentin formalaşmasına səs verdilər. Ötən 3 ilin mənzərəsi Milli Məclisin öz vəzifələrini uğurla həyata keçirdiyini göstərir.**

**Mövzu ilə bağlı qənaətlərini bölüşən Milli Məclisin deputatları bildirirlər ki, parlament son 3 illik fəaliyyəti ilə Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın tərəqqisinə, beynəlxalq imicinin yüksəlməsinə böyük töhfələr verib.**



# Parlament milli inkişaf strategiyasının sürətlə reallaşmasına böyük töhfələr verir

## V çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdən ötən 3 il ərzində qəbul edilən qanunlar respublikamızın tərəqqisinə, nüfuzunun yüksəlməsinə və dövlət siyasətinin uğurla həyata keçirilməsinə xidmət edib











### Milli Məclis vəzifələrinin öhdəsindən layiqincə gəlir

**Hüseynbala MİRƏLƏMOV,**
*Milli Məclisin deputatı, texnika elmləri doktoru, professor:*

- Bu gün V çağırış Azərbaycan Milli Məclisinə keçirilən seçkilərdən 3 il ötür. 2015-ci il noyabrın 1-də keçirilən seçkilər dövlətimizin və xalqımızın demokratiya yolu ilə inamla irəlilədiyini bir daha nümayiş etdirdi. Ona görə də bu mühüm hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü.

Parlament seçkilərinin nəticələri dünyanın nüfuzlu siyasi dairələri, o cümlədən populyar xarici KİV tərəfindən də yüksək qiymətləndirildi.

Bütün rəylərdə, informasiyalarda seçkilərin olduqca ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı.

Ötən 3 il ərzində parlament üzərinə düşən vəzifələri uğurla yerinə yetirməyə müvəffəq olmuşdur. Bu dövrdə Azərbaycanın inkişafına xidmət edən və Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara hüquqi dəstək verən yüzlərlə qanun və qərar qəbul edilmiş, neçə-neçə qanunlara əlavə və dəyişikliklər olunmuş, beynəlxalq müqavilə və konvensiyalar təsdiqlənmiş, bir sözlə, ölkəmizin qanunvericilik bazası daha da təkmilləşdirilmişdir.

V çağırış parlamentin fəaliyyətinin 3-cü ildönümü tamam olan 2018-ci il sona yaxınlaşır. Bu il xalqımızın yaddaşında, ölkəmizin tarixində növbəti uğurlu mərhələ kimi qalacaq. 2018-ci il həm də yubileylər ilidir. Bu il xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin və müxtəlif dövlət qurumlarının yaranmasının 100 illik yubileylərini təntənə ilə qeyd etdi və bu proses hələ davam edir.

Bu ilin başqa bir fərəh doğuran hadisəsi Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin 15-ci ildönümünün tamam olmasıdır. Ulu öndərin siyasi xəttinin davamçısı Prezident İlham Əliyev 2003-cü ildən ötən dövr ərzində ölkəmizi yeni tərəqqi yoluna çıxarmaqla ilk növbədə Heydər Əliyevin arzularını gerçəkləşdirmişdir. Son 15 ildə Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi uğurların miqyası kifayət qədər genişdir. Bu illər ərzində Azərbaycan iqtisadiyyatı dinamik inkişaf edib, ümumi daxili məhsul istehsalı real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə çoxalıb. 2004-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, orta aylıq əməkhaqqı 2003-cü ildəki 77,4 manatdan 528,2 manatadək yüksəlib, yoxsulluq səviyyəsi 5,4 faizədək, işsizlik səviyyəsi 5 faizədək azalıb. Ölkədə 2 milyondan çox yeni iş yeri açılıb. Son 15 ildə 3000-dən çox məktəbdə, 500-dən çox məktəbəqədər təhsil müəssisəsində və 650-yə yaxın səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

Bütün bu işlərdə ölkəmizin birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti ən yüksək ehtirama layiqdir. Birinci vitse-prezident təyin olunana qədər Milli Məclisin deputatı olan Mehriban Əliyeva ölkəmizdə parlament mədəniyyətinin inkişafına çox böyük önəm verib, dövlətimizin qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edib. Bir sıra qanunvericilik aktlarının təşəbbüskarı olub. Milli Məclisdəki fəaliyyəti dövründə Mehriban Əliyeva ABŞ, Fransa parlamentlərarası dostluq qruplarının rəhbəri, Türkiyə, Rusiya parlamentlərarası dostluq qruplarının üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafında böyük işlər görüb, Azərbaycan parlamentini xaricdə layiqincə təmsil edib. O, xalqımızı düşündürən problemləri beynəlxalq ictimaiyyətə çatdırmaq üçün mümkün olan hər şeyi edib. Milli Məclisin deputatı adını daşımaq Mehriban Əliyevanın özünün dediyi kimi böyük şərəf idi. Bu mənada Mehriban Əliyevanın Milli Məclisdəki fəaliyyəti hər birimiz üçün nümunədir.

Təmsil olunduğum V çağırış Milli Məclis öz fəaliyyətini əsası ulu öndər tərəfindən qoyulmuş prinsiplər əsasında quraraq və ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüsləri dəstəkləyərək Azərbaycanın hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Bu çağırış Azərbaycan Milli Məclisinin intellektual potensialı onun səlahiyyəti dövründə qanun yaradıcılığı fəaliyyətinin hər cəhətdən uğurlu olacağına əminlik yaradır.

### Dövlətin daxili və xarici siyasətinin dəstəkçisi

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
*Milli Məclisin deputatı, tibb elmləri doktoru, professor:*

- Bütün zamanlarda ölkədə müstəqilliyin möhkəmləndirilməsində və sürətli inkişafın təmin edilməsində müstəsna rol oynayan Azərbaycan parlamenti demokratik, dünyəvi dövlət quruculuğunun möhkəm hüquqi bazasını yaradıb və təkmilləşdirib. 23 ilə yaxındır ki, Azərbaycan Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Ümumiyyətlə, parlament diplomatiyası milli maraqlarımıza xidmət edir.

Konstitusiya ilə səlahiyyətlərinə aid edilmiş məsələləri həll edən Milli Məclisin fəaliyyətinin əsas prinsiplərini aşkarlıq, siyasi plüralizm və çoxpartiyalılıq, məsələlərin sərbəst müzakirə və müstəqil həll olunması təşkil edir. Dövlətin daxili və xarici siyasətini fəal surətdə dəstəkləyən parlamentdə ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların hüquqi mexanizmi daha da təkmilləşdirilir.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, parlament ölkəmizdə və beynəlxalq aləmdə baş verən mühüm siyasi hadisələrə də münasibətini bildirir, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün zəruri tədbirlər görür.

2015-ci il noyabr ayının 1-də keçirilən parlament seçkilərindən 3 il ötür. Bu qısa zamanda görülən işlərə, qazanılan uğurlara görə ali qanunverici orqanın fəaliyyətini yüksək qiymətləndirmək olar.

Öncə vurğulayaq ki, Milli Məclis beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafına daim xüsusi diqqət yetirir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. İndiyədək xarici ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında 20-yə qədər saziş bağlanıb. Milli Məclisdə 80-dən çox ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılıb. Deputatlarımız iştirak etdikləri bütün beynəlxalq təşkilatların toplantılarında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əllərindən gələni əsirgəməyiblər.

Daxili fəaliyyətə gəldikdə isə deyə bilərik ki, parlament tərəfindən bütün dövlət qurumları ilə sıx əlaqə saxlanılır. Hakimiyyətin müxtəlif qolları arasında iş birliyi ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir. Həmçinin ölkənin ictimai-siyasi həyatına təsir göstərən mühüm qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilir, müxtəlif sahələrin inkişafına dair yeni-yeni qanun layihələri qəbul olunur.

Son illər ölkəmizdə dövlət hakimiyyətinin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq münasibətləri bərqərar olub. Prezident İlham Əliyev Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir dünya standartlarına uyğun qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Parlamentin qəbul etdiyi qanun layihələrinin 80 faizindən çoxu dövlət başçısının təşəbbüsü ilə müzakirəyə çıxarılır. Bir sözlə, Milli Məclis Konstitusiyada nəzərdə tutulan nəzarət funksiyasını uğurla həyata keçirir.

Parlamentin üç illik fəaliyyətindən söhbət açarkən əlbəttə ki, ilk növbədə bu müddətdə üzvü olduğum səhiyyə komitəsi tərəfindən müzakirəyə çıxarılan sənədləri və qanunlara edilən mühüm dəyişiklikləri qeyd etmək yerinə düşər. Azərbaycanın tibb sahəsində mühüm yeniliklərə səbəb ola biləcək "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Dərman vasitələri haqqında" qanunlara edilən mühüm dəyişikliklər, "Psixoloji yardım haqqında" yeni qanun layihəsi, eləcə də digər sənədləri göstərmək olar.

Bu müddət ərzində yaşanan ən mühüm tarixi hadisə isə sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyinə həsr olunmuş təntənəli iclasın keçirilməsidir. Bu iclasda 44 xarici ölkənin nümayəndə heyəti, 10-a yaxın beynəlxalq təşkilatın və ölkəmizdəki diplomatik korpusların təmsilçiləri iştirak etdi.

Prezident İlham Əliyev milli parlamentimizin bir əsrlik yubileyinə toplaşmış qonaqlar qarşısında çıxış edərək bildirdi ki, Azərbaycan uğurla inkişaf edir və bu yolda Azərbaycan parlamentinin rolu xüsusilə qeyd edilməlidir. Parlament həm ulu öndər Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Milli Məclis tərəfindən həyatımızın bütün sahələrini əhatə edən bir çox qanunlar qəbul edilir. Azərbaycanın qanunvericilik bazası ən yüksək meyarlara cavab verir.

Milli Məclis ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Cənab Prezidentin söylədiyi kimi milli maraqlarla bağlı məsələlərdə deputatlarımız bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır.

Əminliklə söyləyə bilərik ki, Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə öz müsbət töhfəsini verəcək.

### Parlamentin son 3 illik fəaliyyəti çox zəngin olub

**Asim MOLLAZADƏ,**
*Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri:*

- Azərbaycan Respublikası V çağırış Milli Məclisinin 3 illik fəaliyyətini yüksək qiymətləndirmək üçün kifayət qədər əsaslarımız var. Öncə onu qeyd etmək istərdim ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də ilk parlamentimizin yaradılmasının 100 illiyi həm ölkəmizdə, həm də azərbaycanlıların yaşadığı xarici ölkələrdə xüsusi tədbirlərlə qeyd olundu. Biz bununla da Azərbaycanın türk-müsəlman Şərqində oynadığı əvəzsiz tarixi rolu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdıq.

Bu gün bizim müstəqil dövlətimiz, milli qanunvericiliyimizin yaradılması, ölkənin qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində çalışan, bunun üçün dünyanın ən təkmil qanunlarına istinad edən parlamentimiz var. Həmişə olduğu kimi, ötən üç il ərzində də Milli Məclis ölkə üçün çox vacib qanunları qəbul edib. Bu sırada dövlət üçün prioritet olan təhsil sahəsinin hüquqi bazasının yaradılması istiqamətində atılan addımları xatırlatmaq istəyirəm.

Son dövrlərə qədər təhsil sistemimiz sadəcə "Təhsil haqqında" çərçivə qanunu əsasında fəaliyyət göstərirdi. Lakin biz bu üç il ərzində "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" qanunları qəbul etdik. Bu qanunlar olduqca vacib sənədlərdir. Eyni zamanda, son üç ildə "Təhsil haqqında" qanuna 60-dan çox zəruri dəyişikliklər edilib və 2 yeni maddə əlavə olunub. Bundan əlavə son dövrlərdə qəbul edilmiş "Əmək pensiyaları haqqında", "İşsizlikdən sığorta haqqında" qanunlar da önəmli sənədlərdir.

Prezident İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamından sonra Milli Məclis qanunvericiliyə bu sərəncamdan irəli gələn müvafiq dəyişiklikləri edib. Bu dövrdə Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilib. Cinayət tərkiblərinin Cinayət Məcəlləsindən çıxarılması yolu ilə bu əməllərin dekriminallaşdırılması, məcəlləyə "azadlığın məhdudlaşdırılması" cəzasının əlavə edilməsi və cəza siyasətinin humanistləşdirilməsi istiqamətində digər dəyişikliklərin qəbulu 3 illik fəaliyyətin nəticəsidir.

Bundan əlavə, ölkədə köklü iqtisadi islahatlara təkan verəcək sənədlərin, vergi sistemini tənzimləyən qanunların qəbulu, ölkədə qeyri-neft sektorunun inkişafına hədəflənmiş yol xəritələrinin, enerji layihələrinin şaxələndirilməsinə yönəlmiş normativ aktların, bir sıra digər önəmli sənədlərin ratifikasiyası da mühüm addımlardandır. Bu sırada regionumuz üçün çox vacib olan enerji, nəqliyyat layihələrinin, ölkənin müxtəlif sahələr üzrə infrastrukturunun genişləndirilməsinə, yenidən qurulmasına yönəlmiş sənədləri də qeyd etmək lazımdır.

26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı Milli Məclis qarşısında bir sıra öhdəliklər qoymuşdu. Bu öhdəliklər ölkə qanunvericiliyini yeni Konstitusiyanın tələblərinə uyğunlaşdırmaqdan ibarət idi. Milli Məclis bu öhdəlikləri yerinə yetirərək qanunlara müvafiq dəyişiklikləri həyata keçirməkdədir.

Son üç ildə Azərbaycan parlamentində beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr sahəsində də mühüm irəliləyişlər olub. Milli Məclisdə bir sıra xarici dövlətlərin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılıb. Bu, deputatların xaricdəki həmkarları ilə müvafiq əlaqələr qurmasına, səmərəli əməkdaşlıq və dostluq münasibətləri saxlamasına imkan verib. Məhz bu isti münasibətlər sayəsində biz bir sıra ölkələrin parlamentlərində Dağlıq Qarabağ problemi, Xocalı soyqırımı ilə bağlı Azərbaycanın mənafeyinə uyğun sənədlərin qəbul edilməsinə nail olmuşuq. Xaricdəki həmkarlarımızın dəstəyi ilə Azərbaycan həqiqətlərini onların ölkələrinin ictimaiyyətinə çatdıra bilmişik.

Bu dövr yerli və xarici parlamentarilərin qarşılıqlı səfərləri ilə də yadda qalıb. Eyni zamanda, Milli Məclis çoxsaylı mühüm xarici qonaqları, dünya siyasətində önəmli rol oynayan şəxsiyyətləri, bir sıra dövlət və hökumət başçılarını qəbul edib. Onlarla faydalı fikir mübadiləsi aparılıb.

Bir sözlə, Milli Məclisin son 3 illik fəaliyyəti çox zəngin olub və qarşıdakı 2 il ərzində də bu templə öz işini davam etdirəcəyinə şübhə yoxdur.

### Milli Məclis milli maraqlara fədakarlıqla xidmət edir

**Zahid ORUC,**
*Milli Məclisin deputatı:*

-1995-ci ildə referendum yolu ilə qəbul olunmuş Konstitusiyaya görə, Azərbaycanda dövlət hakimiyyəti, hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir, qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir.

İndi fəaliyyət göstərən V çağırış Milli Məclis yüksək beynəlxalq standartlara və demokratik şərtlərə uyğun şəkildə 2015-ci il noyabrın 1-də keçirilmiş seçkilər nəticəsində formalaşıb. Bir palatadan ibarət olan 125 nəfərlik parlamentdə 11 siyasi partiya təmsil olunur. Əlbəttə ki, öncə onu deyə bilərik ki, 2015-ci ildən davam edən parlamentin fəaliyyəti dövlətin beynəlxalq və daxili siyasətinin çağırışlarına uyğun qurulub. Müstəqillik dövründən formalaşan qanunvericilik bazası isə özü-özlüyündə bütün sahələri əhatə etməkdədir. Elə bir sektor yoxdur ki, orada hüquqi münasibətləri tənzimləmək üçün gərəkən normativ bazalar hazırlanmamış olsun. Bir sözlə, dövlət hakimiyyət qolu kimi Milli Məclis öz üzərinə düşən vəzifəni uğurla yerinə yetirir. Parlamentin fəaliyyəti açıqlıq və aşkarlıq prinsipləri üzərində qurulub.

2015-ci ildən keçən dövr ərzində Milli Məclis həm ölkənin daxili, həm də xarici siyasətinin uğurlarını əks etdirən çox mühüm sənədlər qəbul edib. Bunların sırasında beynəlxalq sazişlərin ratifikasiya edilməsini, siyasi diplomatik razılaşmaları, əməkdaşlıq protokollarını da göstərmək olar.

Prezident İlham Əliyevin qonşu ölkələr - Rusiya Federasiyası və İran İslam Respublikası, eləcə də Avropa dövlətləri ilə fəal əməkdaşlıq siyasətində Milli Məclis daim dövlət başçısının yanında olub. Bütün bunlar Azərbaycan xalqının milli maraqlarına xidmət edir.

Parlamentin son 3 illik fəaliyyətində qabarıq görünən tendensiyalardan biri də iqtisadi sektorda yaranan müəyyən problemlərlə, xüsusən də maliyyə-bank sektorundakı məlum çətinliklərlə bağlı idi. Yəni manatın devalvasiyası fonunda iqtisadiyyatdakı qeyri-sabitlik, xarici valyutaya tələbatın artması zamanı iki mühüm addım atıldı. Bunlar xaricə valyutanın çıxarılması ilə bağlı tənzimlənmə rejimi və idxalla ixracın ümumi xarakterini nəzərə alan dövlət satınalmaları ilə əlaqədar prosesin müəyyən qədər şəffaflaşması, həmçinin onun dəqiq mexanizmlərinin yaranması idi. Bu, həqiqətən çox önəmli qərarlar hesab olunurdu.

Prezident İlham Əliyevin irəli sürdüyü bu təkliflər Milli Məclis tərəfindən hüquqiləşdirildi və bu gün Azərbaycanın sosial-iqtisadi inkişafı dövlət başçısının nə qədər uzaqgörən siyasətçi olduğunu bir daha təsdiqləyir.

Bütövlükdə götürdükdə Milli Məclis ötən müddət ərzində həm ölkə daxilində, həm də yaşadığımız region və beynəlxalq əlaqələrin inkişafında öz səlahiyyətləri çərçivəsində aktiv rol oynayıb.

Onu da qeyd etməliyik ki, parlamentarizmin dünya miqyasında öz mövqeyi, öz çəkisi var. Avropa Şurası, Avropa Parlamenti, ATƏT, NATO və digər beynəlxalq təşkilatlarla, ölkələrin parlamentləri ilə ikitərəfli münasibətlər, spikerlər səviyyəsində keçirilən görüşlər, beynəlxalq konfranslar, forumlar onu sübut edir ki, Milli Məclis Azərbaycanın dövlət quruculuğunda öz üzərinə düşən vəzifələri layiqincə həyata keçirir.

Azərbaycan parlamentinin bu fəaliyyətini Prezident İlham Əliyev də yüksək qiymətləndirib. Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyinə həsr olunmuş təntənəli iclasda dövlət başçısı Azərbaycanın uğurla inkişafında Milli Məclisin rolunun xüsusilə qeyd edilməli olduğunu bildirərək dedi ki, parlament həm ulu öndər Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, öz töhfəsini verir.

Bu fikirlər Azərbaycan parlamentinin fəaliyyətinə 2018-ci ildə verilən böyük dəyər idi. Çünki 100 il əvvəlki parlamentin fəaliyyəti, atılan mühüm addımlar və bugünkü Milli Məclisin gördüyü işlər bir daha təsdiq edir ki, həqiqətən bu müddət ərzində böyük bir yol keçmişik. Hesab edirəm ki, Milli Məclisin 6-cı, 7-ci çağırış dönəminin parlamentariləri də bu istiqamətdə mühüm addımlar atacaq və parlament Azərbaycanın gələcək uğurlarına mühüm töhfələrini verəcək.

### Parlamentin ötən 3 illik işi məhsuldarlığı ilə əlamətdardır

**Fazil MUSTAFA,**
*Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının başqanı:*

- V çağırış Azərbaycan Respublikasının Milli Məclisinin fəaliyyətinin ötən 3 ili məhsuldarlığı ilə yaddaşlarda qaldı. Bu müddətdə qanunverici orqanda bir-birindən əhəmiyyətli qanunlar qəbul edildi, cəmiyyət həyatının ən aktual məsələlərinə dair ciddi müzakirələr aparıldı, xeyli maraqlı təkliflər gündəmə gətirildi. Xüsusilə, 2016-cı ildə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər layihəsinin Milli Məclisdə müzakirəsi və yeni müddəaların təsbit olunaraq referenduma çıxarılması ölkənin ictimai-siyasi həyatında fərqli bir canlanma yaratmış oldu. Prezidentlik müddətinin beş ildən yeddi ilə qaldırılması, vitse-prezidentlik institutunun təsis olunması, insan hüquqlarının genişləndirilməsi istiqamətindəki yeniliklərin nəzərdə tutulması və Milli Məclisin səlahiyyətlərinə aid məsələlərin gündəmə gətirilməsi son üç ilin bəlkə də ən məhsuldar qanunvericilik fəaliyyəti dövrü sayıla bilər. Bu dəyişikliklərdən sonra Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması, Azərbaycan Respublikasının prezident seçkilərində Milli Məclisin üzvü olan bir neçə şəxsin namizəd olaraq seçki marafonunda iştirak etməsi ən diqqətçəkən məqamlar olaraq xatırlana bilər.

Bu ilin aprel ayının 11-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin andiçmə mərasimini məhz Milli Məclisdə keçirməsi və vəzifəsinin icrasına başlaması ən ciddi tarixi hadisələrdən biri sayıla bilər. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 100 illiyi tədbirinin bu ilin sentyabr ayının 21-də Milli Məclisdə çoxsaylı xarici qonaqların iştirakı ilə keçirilməsi də yaddaşlarda qalan möhtəşəm bir tədbir oldu. Son 3 ildə Milli Məclisin qanunvericilik fəaliyyəti cəmiyyət həyatında yeni qanunların qəbul olunması baxımından da məhsuldar oldu. "Ələt azad iqtisadi zonası haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və sair qanunlar böyük ictimai müzakirələrdən keçərək qəbul olunmuş və cəmiyyətimizin həyatına yeni tənzimləyici normativ müddəaları daxil etmişdir. Fikrimcə, V çağırış Milli Məclisin fəaliyyəti öncəki çağırışlarla müqayisədə daha təkmilləşmiş və peşəkar məzmunda olmuşdur.

***"Azərbaycan"***

# Müdafiə naziri Naxçıvan istiqamətində işğaldan azad edilmiş ərazilərdə olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfər edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Günnüt kəndi və ətraf ərazilərdə yerləşən mövqelərdə, Qızılqaya yüksəkliyində yaradılmış etibarlı müdafiə sistemi, görülmüş mühəndis işləri və yeni mövqelərdə qısa zamanda tikilən əsgəri-məişət kompleksləri ilə tanış olub. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqla, daimi işıq və istilik sistemi ilə təchiz edilib.

General-polkovnik Z.Həsənov ön xətdə əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb. Nazir xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.

# Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycanın xarici işlər naziri ilə görüşüb

Bolqarıstana səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 31-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevə çatdırıb.

Bolqarıstan Prezidenti Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Görüşdə iki ölkə arasında mövcud olan yüksək səviyyəli əməkdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub. Hər iki tərəfin əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsində maraqlı olduğu vurğulanıb. Xüsusilə, energetika və nəqliyyat sahələrində əməkdaşlığın dərinləşdirilməsinə hər iki ölkə tərəfindən verilən önəm qeyd edilib.

Prezident Rumen Radev 2017-ci ilin oktyabrında Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyev ilə birgə bəyanatlarının davamı olaraq, Bakı-Sofiya birbaşa hava xəttinin açılmasını çox yüksək qiymətləndirib. Bu hava xəttinin açılmasının tərəflər arasında xüsusilə turizm sahəsində əlaqələrin inkişafı baxımından mühüm rol oynadığı vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri zamanı 2015-ci il 4 mart tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişaf etdirilməsi baxımından əlverişli siyasi zəmin yaratdığı ifadə olunub.

# Bakıda "İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması" mövzusunda müzakirələr aparılıb






Oktyabrın 31-də Bakıda Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının birgə reallaşdırdığı "Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi" qrant proqramı çərçivəsində "İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, müvafiq qurumların nümayəndələrinin, peşə təhsili müəssisələri əməkdaşlarının, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi təmsilçilərinin, ekspertlərin iştirak etdikləri tədbirdə təhsil naziri Ceyhun Bayramov ölkəmizdə peşə təhsilinin inkişafına xüsusi önəm verildiyini bildirib və bu sahədə həyata keçirilən tədbirlərdən danışıb. Nazir peşə təhsilinin ölkənin sosial-iqtisadi inkişafına təkan verən, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edən aparıcı təhsil pilləsi olduğunu, bu sahədə ölkə rəhbərliyi tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

C.Bayramov "Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi", "Peşə təhsili haqqında" qanunun əhəmiyyətini qeyd edib, peşə təhsilində uğurlu nəticələrin əldə olunacağına əminliyini vurğulayıb. Nazir informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınmasının Strateji Yol Xəritəsinin əsas hədəflərindən biri olduğunu deyib. O, bu sahədə beynəlxalq əməkdaşlığın səmərəli olduğunu vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iqtisadiyyatda müasir meyillərin peşə təhsili qarşısında yeni tələblər qoyduğunu və əmək bazarında rəqabətə davamlı ixtisaslı kadrlara tələbatın artdığını söyləyib, kadr hazırlığı sisteminin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsaqzai həyata keçirilən layihələrin ölkəmizdə peşə təhsili sisteminin məzmun və keyfiyyətinin yaxşılaşdırılmasına təkan verdiyini bildirib, yeni yaradılan mərkəzlərin peşə təhsilinin inkişafı sahəsində mühüm rol oynayacağına inamını ifadə edib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Aleksandra Nerisanu təmsil olunduğu qurum ilə ölkəmiz arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini, əsas diqqətin respublikamızda peşə təhsilinə yönəldiyini və bir sıra birgə layihələrin həyata keçirildiyini söyləyib. Tədbirdə informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizmi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və hazırlanacaq normativ sənədlərlə bağlı geniş müzakirələr aparılıb.

Sonra plenar iclaslarda "Vətəndaşların qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması Qaydaları" layihəsi barədə beynəlxalq ekspertlərin fikirləri dinlənilib.

Qeyd edək ki, konfrans Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı tərəfindən icra olunan "Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək" layihəsi çərçivəsində reallaşdırılıb.

# Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub

*Əvvəli 1-ci səh.*

Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bildirilib ki, hesabata əsasən, ölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə, "Doing Business 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

"Doing Business 2019" hesabatında deyilir: "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib" ("DOING BUSINESS 2019" - Training for Reform", World Bank Group, page 13.). Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.




Qeyd etmək lazımdır ki, Dünya Bankının hər il hazırladığı "Doing Business" hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

"Doing Buisness" hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda ("Qlobal Rəqabətlilik Hesabatı", "Qlobal İnnovasiyalar İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Qlobal İmkanlar İndeksi" və s.) baza rolunu oynayır.

"Bu, çox böyük uğurdur, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, xüsusilə qeyd edilən sahələr üzrə aparılan təkmilləşmə tədbirləri nəticəsində nail olunmuş növbəti nailiyyətlərdən biridir. Sözsüz ki, bu uğurların həyata keçirilməsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrimizin də rolu var və bu sahədə Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasını xüsusi qeyd etmək lazımdır" - deyə Vüsal Şıxəliyev qeyd edib.

Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) ölkəmizdəki daimi nümayəndəsi Aliyə Əzimova bildirib ki, bu gün Azərbaycanın inkişafında və iqtisadi islahatlar sahəsində uzun bir yolun əhəmiyyətli nöqtəsindəyik. Azərbaycan müstəqillik dövründə iqtisadi sahədə böyük uğurlara nail olub. Qeyri-neft sektorunun inkişafını prioritet kimi müəyyən etmiş ölkə üçün "Doing Business" göstəricilərində uğurların əldə edilməsi növbəti inkişaf istiqamətlərini aydın görməyə imkan verir. Azərbaycan ötən il həyata keçirilən islahatların sayına görə regionda ön sırada olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, əldə olunmuş nəticə Azərbaycan üçün tarixi rekorddur. Azərbaycan dünyada ən çox islahat aparan ölkədir. Çünki Azərbaycan hazırda "Doing Business" islahatlarına görə dünyada lider ölkədir və dünyanın top islahatçı ölkəsi statusunda qiymətləndirilib. "Doing Business" islahatı səviyyəsinə görə Azərbaycan postsovet məkanında ikinci, MDB məkanında birinci ölkədir. Bu islahatlar dövlət başçısının siyasi iradəsi ilə aparılıb. Azərbaycan MDB məkanında ən sürətlə irəliləyən ölkədir. Ölkəmiz "Doing Business" hesabatında 32 pillə irəliləyib. Qazaxıstan 8, Rusiya 4, Belarus 1, Qırğızıstan 7, Ukrayna 5, Özbəkistan 2, Tacikistan isə 3 pillə geriləyib.

# Böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib

*Tədbirdə Mir Cəlalın 110 illik yubileyi münasibətilə nəşr olunmuş "Füzuli sənətkarlığı" kitabı təqdim edilib*





Oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib. Tədbir çərçivəsində Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı, həmçinin Mir Cəlal Paşayev və Firidun Hüseynovun "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin yenidən işlənmiş dördüncü nəşri təqdim edilib.

## Sönməyən işıqlar

AZƏRTAC xəbər verir ki, xatirə gecəsində Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatında mövqeyindən söz açıb. Qeyd edib ki, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, eləcə də Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Heydər Hüseynov kimi ədəbiyyatşünas alimlər Azərbaycanın gələcəyi üçün öz zəkası və qələmləri ilə işıq yandırmış insanlardır. Onların yandırdığı bu işıq Azərbaycan xalqının yolunu daim aydınlaşdıracaq.

Altmış il əvvəl, 1958-ci ildə Füzulinin vəfatının 400 illiyinin Azərbaycanda qeyd edildiyini xatırladan akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin həmin il nəşr etdirdiyi "Füzuli sənətkarlığı" kitabını ölkəmizdə müasir füzulişünaslığın əsasını qoyan əsər kimi səciyyələndirib. Diqqətə çatdırıb ki, görkəmli ədib 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Sonralar bu əsəri təkmilləşdirərək "Füzuli sənətkarlığı" adı ilə nəşr etdirib. Kitab "Ədibin Evi" tərəfindən Mir Cəlalın 110 illik yubileyi münasibətilə yenidən çap olunub. Muzeyin direktoru bu kitabın nəşrini işığın qayıtması kimi dəyərləndirib.

## Hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər

Mir Cəlalın tələbəsi olmuş Xeyrulla Əliyev müəllimi ilə bağlı xatirələrini bölüşüb. "İndi qəribə görünsə də, o dövrdə ali məktəblərdə dərsə davamiyyət jurnalları rus dilində yazılırdı. Bu səbəbdən də "Əliyev" familiyası "Aliyev" olurdu. Sanki buna etiraz əlaməti olaraq Mir Cəlal müəllim də, Məmmədhüseyn Təhmasib də, Abbas Zamanov da auditoriyada heç kimin adını həmin jurnaldan oxumaz, tələbələrdən kimin gəlmədiyini qrup nümayəndəsindən soruşardılar. Mir Cəlal müəllim elə sadə danışırdı ki, mən onun mühazirəsini yazmağa ehtiyac duymurdum, eyni zamanda, elə fikirlər söyləyirdi ki, mən onları yazmaya bilmirdim. Mir Cəlal müəllimin fikrincə, hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər" - deyən Xeyrulla Əliyev müəlliminin tələbələri yaradıcılığa ruhlandırdığını, yüksək insani keyfiyyətlərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Mir Cəlal Paşayevin həyat və fəaliyyəti haqqında fikirlərini bölüşüb. Bildirib ki, bu böyük şəxsiyyət təkcə ədəbi yaradıcılığı ilə deyil, həm də xeyirxah əməlləri, insanpərvərliyi ilə dərin rəğbət və məhəbbət qazanıb. Akademik Akif Əlizadə özünün də bir şəxsiyyət kimi formalaşmasında Mir Cəlal Paşayevin nümunəvi həyatının böyük rolu olduğunu, bu böyük yazıçının Azərbaycan ədəbiyyatı tarixində pedaqoq, alim və ədib kimi ən yüksək zirvəni fəth etdiyini diqqətə çatdırıb. Gənclik dövründə Mir Cəlalla görüşləri barədə xatirələrini bölüşən akademik Akif Əlizadə bu ailənin üzvlərinin bu gün də Azərbaycana işıq gətirdiklərini, ədibin övladlarının və nəvələrinin ölkəmizi dünyada təbliğ etdiklərini vurğulayıb.

## Xoşbəxt yazıçı və pedaqoq, xoşbəxt ata

Tədbirdə çıxış edən xalq yazıçısı Elçin deyib ki, Mir Cəlal müəllim auditoriyaya girəndə əzəmətli bir pedaqoq təsiri bağışlayırdı. Ona görə ki, onun mənəvi dünyası əzəmətli idi, onun yaradıcılığı, daxilindəki xeyirxahlıq əzəmətli idi. Xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyata xidmət edirdi. Bugünkü oxucuların - müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də sistemə deyil, Azərbaycan ədəbiyyatının tarixinə xidmət edirdi. O həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi. Mir Cəlal həm də xoşbəxt bir atadır; onun sovet dövründə yetişdirdiyi övladları bu gün müstəqil Azərbaycana layiqincə xidmət edirlər.

Akademik Vasim Məmmədəliyev diqqətə çatdırıb ki, Mir Cəlal böyük şəxsiyyət olduğu qədər də böyük sənətkardır. Onun xalq tərəfindən sevilməsinin səbəbi şəxsiyyətində bu iki keyfiyyətin bir-birini tamamlamasıdır. "Füzulinin sənətkarlığı" kitabı bu gün də hər kəsə lazımdır. Mir Cəlal Paşayev ədəbiyyatın bir çox sahələrində yeni söz demiş alimdir. Təkcə "Füzulinin sənətkarlığı" onun ədəbiyyat tariximizdə qalması üçün kifayət edər.

## Gözəl insanların gözəl əməlləri xatirələrdə yaşayır

Tədbirdə Feyzulla Qasımzadənin qızı Nigar Qasımzadə, Həmid Araslının qızı Nüşabə Araslı Mir Cəlalla bağlı xatirələrini bölüşüblər. Qeyd olunub ki, onun şəxsiyyəti özlüyündə bir məktəb idi. O, özü də bilmədən ətrafındakı gənclərə bir cəsarət verirdi. Mülayim xasiyyəti vardı, lakin prinsipial idi, mövqeyindən dönməzdi, yersiz güzəştə getməzdi. Bütün bu keyfiyyətləri ilə o həm yazıçı kimi, həm də şəxsi nümunəsində insanların formalaşmasına müsbət təsir göstərirdi.

Mir Cəlalın tələbəsi olmuş Təhsin Mütəllimov deyib ki, Mir Cəlal müəllimin vəfatından 40 il ötür. Lakin gözəl insanların gözəl əməlləri onlar haqqında xatirələrdə yaşayır. Gərək elə mənalı ömür sürəsən ki, özündən sonra bu qədər xatirə qoyub gedəsən. Mir Cəlal müəllim məhz bu cür mənalı ömür sürüb. Təhsin Mütəllimov Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabında dahi Füzuli eşqinin mahiyyətini açdığını vurğulayaraq, kitabın yenidən nəşrini yüksək qiymətləndirib.

Tədbirdə Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin qocaman əməkdaşı Cümşüd Muradov, habelə professor Abdulla Abbasov da Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda Mir Cəlalın oğlu Hafiz Paşayev tədbirin təşkilinə görə təşəkkürünü bildirərək deyib: "Siz böyük iş gördünüz. Əslində, belə məclislər tez-tez olmalıdır. Ədəbiyyatımızda layiqli yeri olan insanlar çoxdur və onlar haqqında bu cür tədbirlər təşkil edilməlidir".

Hafiz Paşayev həmçinin məktəb illərində atasının ona muğam üstündə oxunan qəzəllərin sözlərini izah etməsi ilə bağlı xatirələrini bölüşüb.

Ədibin oğlu qeyd edib ki, Mir Cəlalın "Füzuli sənətkarlığı" kitabı 1958-ci ildən sonra bir neçə dəfə nəşr edilib. Lakin o nəşrlər Mir Cəlalın özünün nəşr etdiyi kitabdan çox fərqlidir. Belə ki, həmin nəşrlərdə müasirləşdirmə aparılıb, dinlə, sovet ideologiyası ilə bağlı yerlər çıxarılıb. Lakin təqdimatı keçirilən kitab 1958-ci il nəşrinin mətninə əsaslanır.

Tədbirdə Aqil Məlikov və Hüseyn Məlikovun ifa etdikləri muğamlarda Füzuli qəzəlləri səsləndirilib.

Qeyd edək ki, "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir. Mir Cəlal Paşayevin təkcə elmi irsi ilə deyil, həm də xeyirxahlığı, böyük müəllimliyi, sadəliyi ilə qəlblərdə özünə abidə ucaldır.

# Milli Məclisdə TürkPA-nın hüquqi məsələlər və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib

Oktyabrın 31-də Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin deputatı, komissiyanın sədri İsmət Uçmanın sədrlik etdiyi iclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlament nümayəndələri və ekspertlər iştirak ediblər.

İsmət Uçma əvvəlcə iclasın gündəliyinə daxil edilən layihələrin əhəmiyyətindən danışıb.

Azərbaycanın müstəqillik tarixindən bəhs edən İsmət Uçma bildirib ki, 1918-ci ildə böyük mübarizə nəticəsində qardaş Azərbaycan öz müstəqilliyini elan edərək Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. Cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində devrilib. 1991-ci ildə isə Azərbaycan yenidən öz müstəqilliyini bərpa edib. Azərbaycan nadir maddi-mənəvi nemətləri, insan qaynaqları, yeraltı və yerüstü sərvətləri, əldə etdiyi nailiyyətlərlə dünyanın əhəmiyyətli ölkəsinə çevrilib. Azərbaycanın hər bir uğuru Türkiyəni çox sevindirir. Türkiyə qardaş ölkə kimi daim Azərbaycanın yanındadır.

İsmət Uçma qeyd edib ki, türkdilli ölkələr öz aralarında sosial, siyasi, iqtisadi sahələrdə əməkdaşlığı daha da inkişaf etdirərək dünyaya bir nümunə göstərəcəklər. Keçən 10 il ərzində TürkPA üzvləri tərəfindən bir çox uğurlara imza atılıb. Bildirilib ki, toplantılar, müxtəlif mövzulardakı konfranslar, təcrübə mübadiləsi sayəsində qardaş ölkələrimiz arasında parlament səviyyəsində əməkdaşlığın daha da genişləndirilməsi çox əhəmiyyətlidir. Bu il noyabrın 20-də İzmirdə TürkPA-nın 10 illiyi qeyd ediləcək. Ümid edirəm ki, 10 il ərzində gördüyümüz işlər gələcək üçün yol xəritəsi ola biləcək.

Sonra Milli Məclisin deputatı Cavanşir Feyziyev gündəlikdəki məsələlərlə bağlı fikirlərini səsləndirib. Bildirilib ki, son 3 il ərzində keçirilən toplantılar çox önəmli və faydalıdır. TürkPA-nın fəaliyyətdə olduğu 10 il ərzində ortaya türk dünyası üçün əhəmiyyətli olan çox böyük işlər qoyulub. Bütün bunlar təqdirəlayiqdir və gələcək üçün böyük vədlər verən fəaliyyətdir.

TürkPA-nın baş katibi Altınbek Mamayusupov islam dünyasında ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə xalqımıza təbriklərini çatdırıb. Cari ilin önəmli tarixlərlə zəngin olduğunu deyən Altınbek Mamayusupov bildirib ki, Qazaxıstanda da Astana şəhərinin qurulmasının 20, qazax ədəbiyyatının məşhur və önəmli şairlərindən biri Maqcan Cumabayevin 125 illiyi, Qırğızıstanda isə türk dünyasını və mədəniyyətini dünyaya tanıtdıran böyük qırğız yazıçısı Çingiz Aytmatovun 90 illiyi ilə bağlı tədbirlər keçirilir.

İclasda "TürkPA katibliyinin Maliyyə Əsasnaməsi", "TürkPA-nın göstərdiyi xidmətə görə medalları və medal vəsiqələrinin Əsasnaməsi", "2017-ci il üçün TürkPA katibliyinin icrasının illik auditi", "TürkPA-ya üzv dövlətlərin terrorizmə qarşı mübarizə haqqında qanunvericiliyə dair ortaq mövqeyinin müəyyənləşdirilməsi üzrə hesabat məruzəsi" layihələri ətraflı müzakirə edilib.

# *Nikolas LÖBEL:* "Almaniya Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır"

Oktyabrın 31-də ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının deputatı, hakim Xristian-Demokrat/Xristian-sosial İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin və Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan-Almaniya münasibətlərinin ölkəmiz üçün xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin Azərbaycan Respublikasına səfərini xatırladan Bundestaqın deputatı Nikolas Löbel həmin səfərin iki ölkə arasındakı əlaqələrin inkişafı baxımından faydalı olduğunu bildirib.

Almaniya-Azərbaycan münasibətlərindən bəhs edən Nikolas Löbel deyib ki, Almaniya iqtisadi, enerji təhlükəsizliyi və digər sahələrdə Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır. Biz siyasi, iqtisadi sahələrdə əlaqələrin genişləndirilməsində, eyni zamanda, cəmiyyətlər arasında münasibətlərin qurulmasında da maraqlıyıq.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Görüşdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Asim Mollazadə və Tahir Mirkişili iştirak ediblər.

## 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Aqrar sahənin uğurları Azərbaycanın dinamik inkişafının nəticəsidir

> Kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək.
>
> **İlham ƏLİYEV**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli sərəncamı ilə noyabr ayının 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur. AZƏRTAC kənd təsərrüfatı naziri İnam Kərimovun aqrar sahə işçilərinin peşə bayramı münasibətilə məqaləsini təqdim edir. Məqalədə aqrar sektorda aparılan islahatlar, qazanılan uğurlar və qarşıda duran vəzifələrdən söhbət açılır.

### Müasir çağırışlar fonunda yeni trendlər

İnsanların zəruri ərzaq ehtiyaclarının ödənilməsi cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günədək əsas çağırışlardan biri olmaqda davam edir. Bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi çıxış edir. 2050-ci ilədək 9,3 milyard nəfər olması gözlənilən dünya əhalisinin qidalanması üçün ümumi ərzaq istehsalının təxminən 70 faiz artırılması zəruri olacaq. Bununla yanaşı, dünyada həyat səviyyəsi standartlarının yüksəlməsi trendinə uyğun olaraq ərzaq məhsulları istehsalının strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artmaqdadır.

Buna görə 2015-ci ildə BMT-nin qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədində aclığın ləğv edilməsi, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib.

Bu çağırışlar fonunda dünyada kənd təsərrüfatı sahəsinin inkişafında yeni trendlər müşahidə olunur. *Qlobal miqyasda urbanizasiya proseslərinin sürətli davamı və 4-cü sənaye inqilabı mərhələsinə keçidin başlaması nəticəsində aqrar sektorun rolunda və strukturunda əhəmiyyətli dəyişikliklər baş verir.* Belə ki, torpaq və su resurslarının məhdudluğu fonunda qlobal ərzaq təchizatının əhəmiyyətli dərəcədə artırılması təmin olunmalıdır. Bu isə intensiv istehsal üsullarının və dayanıqlı kənd təsərrüfatı istehsalına imkan verən yeni texnologiyaların tətbiqinin genişləndirilməsini zəruri edir. Ona görə kənd təsərrüfatında müasir texnologiya və innovasiyaların geniş şəkildə tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsinin və ətraf mühitə mənfi təsirlərin azaldılmasının əsas vasitəsi kimi çıxış edir. Bunlarla yanaşı, torpaqlardan dayanıqlı istifadə edilməsi, kənd təsərrüfatının qlobal iqlim dəyişikliklərinə uyğunlaşdırılması, ərzaq məhsulları istehsalının həcminin artırılması həm də bu sahədə islahatların davamlı olaraq həyata keçirilməsini zərurətə çevirir.

*Tarixən böyük əkinçilik ənənələrinə malik olan Azərbaycan bu beynəlxalq çağırışlara cavab verən azsaylı ölkələrdən biridir.* Hələ sovetlər dönəmində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan geridə qalmış respublikadan böyük potensiala malik aqrar-sənaye kompleksinin formalaşdırıldığı, mövcud resursların səmərəli istifadə edildiyi və intensiv inkişaf mexanizmlərinin geniş tətbiq olunduğu dinamik inkişaf edən ölkəyə çevrildi. Müstəqillik bərpa edildikdən sonra ümummilli liderin rəhbərliyi ilə tarixi əhəmiyyət kəsb edən aqrar islahatlar uğurla həyata keçirildi və kənd təsərrüfatının dayanıqlı inkişafı üçün möhkəm baza yaradıldı. 1990-1995-ci illərdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində kəskin azalma olduğu halda, 1995-ci ildən sonra bu sahədə davamlı artım əldə edildi. Ən əsası isə ulu öndərin siyasi iradəsi ilə həyata keçirilən aqrar islahatlar sayəsində azad bazar münasibətlərinə və özəl mülkiyyətə əsaslanan yeni sistemə uğurlu keçid təmin olundu.

Son 15 ildə aparılan böyük həcmli kompleks işlər sayəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə daxil olub. *Bu inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müstəqilliyimizin, təhlükəsizliyimizin, tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın təmin olunmasında müəyyən edilən siyasi kurs dayanır.* Digər sahələr kimi, aqrar sahə də özünün dinamik inkişafı ilə bu çağırışlara cavab verərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlət başçısının qəbul etdiyi siyasi qərarlar kənd təsərrüfatının inkişafı ilə bağlı qabaqcıl tənzimlənmə və dəstək mexanizmlərinin ölkəmizdə də geniş tətbiq olunmasına real zəmin yaradıb.

*Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya olunması, məhsuldarlığın artırılması hesabına istehsal xərclərinin azaldılması və fermerlərin maddi rifahının yüksəldilməsi təşkil edir.*

Son illər bu istiqamətdə ölkəmizdə sistemli şəkildə həyata keçirilən islahatlar və göstərilən yüksək dövlət dəstəyi nəticəsində kənd təsərrüfatında istehsal göstəriciləri davamlı olaraq yüksəlib. Bu nəticələr daxili bazarda yerli istehsal hesabına təklifin artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşmasına şərait yaratmaqla bərabər, qeyri-neft ixracının artırılmasına da mühüm töhfə verib.

### Kənd təsərrüfatında artım davamlı xarakter daşıyır

Azərbaycanda həyata keçirilən genişmiqyaslı aqrar islahatlar hesabına kənd təsərrüfatında artım tempi dayanıqlığı ilə seçilir. 2003-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil edib. *Dünya Bankının məlumatlarına əsasən, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsinin real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olub.*

Kənd təsərrüfatı sahəsində dinamik inkişaf trendi cari ildə də davam edib, ilk 9 ayda kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə *4,3 faiz,* o cümlədən bitkiçilik məhsullarının istehsalı *5,8 faiz,* heyvandarlıq məhsullarının istehsalı isə *2,7 faiz* artıb. Bir sözlə, dövlət başçısının qeyd etdiyi kimi: *"Biz kənd təsərrüfatının ardıcıl artımını görürük".*

Aqrar islahatların hazırkı mərhələsi həm də yüksək əlavə dəyər yaradan ənənəvi sahələrin inkişafı baxımından tarixi dönüş dövrü kimi xarakterizə oluna bilər. Belə ki, pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, çayçılıq, üzümçülük və sitrus meyvəçiliyi ilə bağlı qəbul olunmuş dövlət proqramları çərçivəsində bu sahələrin inkişafı üzrə tədbirlər ardıcıl və sistemli şəkildə həyata keçirilib. Nəticədə yüksək əlavə dəyər və kənd yerlərində geniş məşğulluq imkanı yaradılan sənaye təyinatlı və ixracyönümlü bu sahələrdə əhəmiyyətli inkişaf dinamikası əldə olunub.

Pambıqçılıqda həyata keçirilən məqsədyönlü tədbirlər məhsuldarlığın artırılmasını və son nəticədə bu sahənin ənənəvi nüfuz və şöhrətinin qaytarılmasını təmin edəcək. *Kənd təsərrüfatı məhsulları üzrə emal sənayesinin gücləndirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində Ucar rayonunda pambıq emalı, pambıq yağı və lifsiz pambıq toxumu istehsalı zavodları istifadəyə veriləcək.* Bu isə ölkədə sahənin inkişafına mühüm töhfə olmaqla bərabər, lifsiz pambıq toxumuna tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

İntensiv ferma modelinin tətbiqinin genişləndirilməsi nəticəsində son illərdə heyvandarlıq sahəsində artım əsasən intensiv inkişaf hesabına təmin edilib.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müqayisəli üstünlüklərin daha da artması hesabına onların ixracında yüksək dinamikaya nail olunub. *Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, cari ilin səkkiz ayında isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz və pambıq xammalı ixracı 2,2 dəfə artıb.*

Ölkədə uğurla aparılan aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şərtləri formalaşıb və biznes fəallığı xeyli yüksəlib. Bunlar özünü aqrar sektorda muzdla çalışan işçilərin sayının və investisiya qoyuluşunun həcminin artmasında da büruzə verib.

Yerli istehsal üzrə potensialın güclənməsi və rəqabətqabiliyyətliliyin yüksəlməsi hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə artıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35 faiz olduğu halda, hazırda 90 faizə yaxındır. Bütün növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur.

Ayrı-ayrı sahələr üzrə özünütəminetmə səviyyəsinin yerli istehsal hesabına artırılması, inkişaf və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyini gücləndirməklə müvafiq sahələr üzrə proqram yanaşmasının tətbiq edilməsi və ünvanlı siyasət tədbirləri mexanizminin yaradılması məqsədilə dövlət başçısının tapşırığına əsasən *"Heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı", "Taxılçılığın inkişafına dair Dövlət Proqramı" və "Toxumçuluğun inkişafına dair Dövlət Proqramı"*nın hazırlanması istiqamətində aparılan işlər yekun mərhələsindədir.

### Aqrar islahatların müasir mərhələsinin təməl prinsipləri

Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün müəyyənləşdirilmiş islahatlar elmi yanaşmalara söykənməklə fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Bunu nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - *kəndli və fermerlərə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqini* rəhbər tutur.

Nazirlik təməl prinsiplərinə söykənərək funksional fəaliyyətini müasir tələblərə uyğun təşkil etmək üçün beş strateji istiqaməti əsas götürüb:

*1. Aqrar təhlil.* Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafı vəzifələrinin icrasını təmin etmək məqsədilə *nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb.* Bu vəzifələrin həllini təmin etmək üçün Mərkəz beynəlxalq çağırışlara cavab verən və elmi yanaşmalara əsaslanan tədqiqat və analitik-informasiya xidmətlərinin göstərilməsi ilə məşğul olan peşəkar qurum kimi formalaşdırılır.

*2. Aqrar həllər.* Kənd təsərrüfatı sahəsində hazırda ən başlıca vəzifə məhsuldarlığın artırılması hesabına rəqabətqabiliyyətliliyin və ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu isə bütün istiqamətlərdə innovativ istehsal və idarəetmə texnologiyalarının, müasir və mütərəqqi metod və həllərin geniş tətbiqini tələb edir.

Aqraryönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ yeniliklərin fermerlərə çatdırılması, bu qurumların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar aparılaraq Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb.

Hazırda aqrar elmin modernləşdirilməsi üzrə islahatlar davam etdirilir. Bu islahatlar çərçivəsində bütün elmi-tədqiqat institutlarının inzibati-laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. *İnstitutlarda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi üzrə aqroekologiya və aqrokimya, genetika və seleksiya, ilkin toxumçuluq və tingçilik, xəstəlik və zərərvericilərə nəzarət laboratoriyaları yaradılıb, istixana və toxum emalı məntəqələri tikilib, müasir və məhsuldar meyvə bağları salınıb.* Elmi-tədqiqat institutlarında yaradılan potensial hesabına istehsalçılar yüksək məhsuldarlığa malik toxum və tinglərlə təmin ediləcək.

Fermerlərin yüksək kondisiyalı və məhsuldar buğda, arpa və qarğıdalı toxumları ilə təmin edilməsi məqsədilə Xaçmaz, Şəki, Ağcabədi, Qobustan və Tovuz rayonlarında dənli bitki toxumlarının emalı müəssisələri qurulur.

*3. Aqrar bilik və bacarıqlar.* "Biliklər əsri" adlandırılan müasir dövrdə aqrar sahənin dayanıqlı inkişafı ilk növbədə elm və təhsilin müasir tələblərə uyğun təşkili ilə bağlıdır. *Bu məqsədlə ölkənin aqrar kadr hazırlığının mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təlim planları və proqramları dünyanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir.* Bütün laboratoriyalar tamamilə yenilənərək müasir avadanlıqlarla təchiz edilib, yeni təcrübə bazaları yaradılıb, peşəkar mütəxəssislərin hazırlanması məqsədilə təşviqedici addımlar atılıb. Dövlət başçısının tapşırığına əsasən bu ildən qəbul imtahanlarında 400 və 500-dən yuxarı bal toplayaraq ADAU-nun aqraryönümlü ixtisaslarına qəbul olunan tələbələrə müvafiq olaraq 100 və 200 manat əlavə təqaüdün verilməsinə başlanılıb.

Aqrar sahədə müasir tələblərə cavab verən təlim və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu sahənin rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün mühüm şərtlərdən biri kimi çıxış edir. Bu məqsədlə nazirlik tərəfindən "Fermerlərə təlim və məsləhət xidmətlərinin təşkili üzrə Strategiya" hazırlanıb, fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıb.

Kənd təsərrüfatı sahəsi üzrə modernləşdirilmiş elmi tədqiqatlar, təhsil, təlim və informasiya məsləhət xidmətləri sisteminin formalaşdırılması istiqamətində fəaliyyətlərin sistemli şəkildə həyata keçirilməsi məqsədilə *"Aqrar Elm və Təhsilin İnkişafı üzrə Dövlət Proqramı"* hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

*4. Aqrar dəstək.* Məhsul istehsalçılarının stimullaşdırılması, onların istehsal xərclərinin azaldılması və gəlir əldə etmək imkanlarının artırılması məqsədilə dövlət tərəfindən böyük həcmdə dəstək tədbirləri göstərilir. *Son 10 ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif dəstək tədbirləri üzrə 1.2 milyard manata yaxın subsidiya ödənilib.*

Aqrar sektorun bütün istiqamətləri üzrə təminatının, xüsusilə kənd təsərrüfatı texnikası ilə təchizatın daha da yaxşılaşdırılması üçün dəstək və xidmət tədbirləri davam etdirilib. *"Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə və 30 mindən artıq damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə lizinq yolu ilə istifadəyə verilib.*

Nazirlik tərəfindən yaradılmaqda olan "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiqi aqrar sahədə, o cümlədən subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Bütün xidmətlərin "elektron hökumət" üzərindən həyata keçirilməsi fermerlərə əlavə üstünlüklər yaradacaq. Onların məhsuldarlıq və satış üzrə proqnozlaşdırma imkanları, məlumatlılığı artacaq, dövlət xidmətlərinin sadələşdirilməsinə və sənədlərin azaldılmasına, xidmətlərin əlçatanlığına, habelə yeni bazar alətlərinin tətbiqinə imkan verəcək.

Fermerlərə göstərilən dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahədə xidmətyönümlü fəaliyyətə üstünlüyün verilməsi, fermerlərlə işin gücləndirilməsi, innovasiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq fərmanına uyğun olaraq *rayon (şəhər) kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri (DAİM) yaradılıb.* Bununla yanaşı, nazirlik yanında Fermerlər Şurası və Aqrar Məşvərət Şurası təsis edilib. DAİM-lərin və burada fəaliyyət göstərən Fermer Şuralarının formalaşdırılması prosesi yekunlaşıb.

*5. Aqrar ticarət.* Kənd təsərrüfatı sahəsində hazırda iqtisadi fəallığın yüksəlməsi, bu sahəyə böyük həvəsin göstərilməsi və məhsul bolluğunun yaranması müşahidə olunur. Fermerlər üçün bazar şərtlərinin yaxşılaşdırılması, məhsulların satılmasına və satışda yaranan problemlərin aradan qaldırılmasına yardım göstərilməsi məqsədilə *nazirlik yanında Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb.*

Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur". Öz şərəfli əməyi ilə ölkənin ərzaq təhlükəsizliyinə misilsiz töhfələr verən və əhalinin davamlı surətdə ərzaqla təmin olunması missiyasını üzərinə götürən kənd əməkçiləri və fermerlər də dövlətin xüsusi diqqət və qayğısı ilə himayə olunub. 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Gününün təsis edilməsi onların tükənməz əməyinə dövlət tərəfindən verilən yüksək qiymətin bariz nümunəsidir. Kənd zəhmətkeşlərinin gərgin əməyi sayəsində aqrar sahədə qazanılan nailiyyətlər və davamlı uğurlar dövlət başçısının onlara verdiyi bu qiymətin, göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi peşə bayramı münasibətilə bütün kənd təsərrüfatı işçilərini, xüsusilə məhsul istehsalı ilə məşğul olan kənd zəhmətkeşlərini ürəkdən təbrik edir, onlara şəxsi həyatlarında və işlərində uğurlar arzulayır.

***İnam KƏRİMOV,***
***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri***

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Son iclas" filminin Londonda təqdimatı olub

Böyük Britaniyanın və dünyanın ən nüfuzlu mədəniyyət mərkəzlərindən biri olan Britaniya Kino və Televiziya Sənətləri Akademiyasında "Son iclas" bədii-sənədli filminin təqdimatı olub. Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi və "BP Azerbaijan" şirkətinin sponsorluğu ilə hazırlanan filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır.

AZƏRTAC xəbər verir ki, Londonda təşkil olunan təqdimatda çıxış edən Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin müşaviri Rəşad Vahabzadə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və mövcud olduğu 23 ay ərzində qazandığı nailiyyətlər barədə danışıb.

"BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Son iclas" filmi haqqında danışıb. O, BP şirkətinin bu filmin ərsəyə gəlməsində iştirakından qürur duyduqlarını bildirib.








Ekran əsərində cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə - istər işğalçı ordu, istərsə də bu ordunun daxili havadarlarına qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizəsi əks olunur. Bu mübarizə faciə ilə başa çatsa da, onun Azərbaycanın istiqlal tarixinin şərəfli bir səhifəsi olduğu vurğulanır. Filmdə həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir.

Ekran əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Təqdimat mərasiminin iştirakçısı Bob Batler filmlə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyib: "Filmi izlədikdən sonra Azərbaycanın tarixi haqqında çox maraqlı faktlar öyrəndim. Bu film yüksək səviyyədə çəkilib, zövq aldım".

Mərasimin digər iştirakçısı Nikolas Sauzvel bildirib: "Əla ekran əsəri izlədik, aktyorların oyununu xüsusi qeyd etmək istəyirəm. Bu, tamaşaçıya Azərbaycanın tarixi haqqında məlumat vermək baxımından əla filmdir. Yüz il əvvəl Azərbaycanda qadınlara seçki hüququ verilib. Bu, hətta Böyük Britaniyadan da əvvəl olub. Azərbaycanda olmamışam, amma ölkəniz haqqında təsəvvürlərim çox müsbətdir. Tezliklə oraya səfər etməyi planlaşdırıram".

Antropoloq alim Tamara Draqadze qeyd edib: "Filmdən zövq aldım. Peşəkar bir sənət əsəri izlədim. Aktyorların oyunu, səhnə quruluşu, hər şey əla idi. Arxiv materiallarından istifadə edilməsi filmin belə gözəl alınmasına səbəb olub".

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın həyatına şanlı və tarixi hadisə kimi daxil olub. Cəmi 23 ay yaşayaraq istismar altında olan bir ölkəni Şərqin ilk və ən demokratik respublikasına çevirmiş cümhuriyyət Azərbaycan xalqının milli qürur mənbələrindən biridir.

Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Cümhuriyyətin 100 iliyi münasibətilə həm ölkədə, həm də xaricdə silsilə tədbirlər keçirilib. Bakı Media Mərkəzi də Azərbaycanın bu şanlı tarixinə töhfə vermək üçün "Son iclas" bədii-sənədli filmini ərsəyə gətirib. Film Azərbaycan Xalq Cümhuriyyətinin keşməkeşli tarixinin son günlərinə işıq salır və hökumətin öz son qərarını hansı çətin şəraitdə verdiyini əks etdirir.

"Son iclas" filminin ilk təqdimatı mayın 25-də Bakıda Heydər Əliyev Mərkəzində olub.

# BDU-da beynəlxalq seminar keçirildi

Bakı Dövlət Universitetində BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Baş İdarəsinin Korrupsiya və İqtisadi Cinayətlər İdarəsi, BDU-nun Hüquq fakültəsi və Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti birgə tədris-seminarı keçirib.



BMT-nin nüfuzlu ekspertlərinin, Finlandiya, Belarus, Türkiyə, Ukrayna, Rusiya Federasiyası və s. ölkələr də daxil olmaqla, 25 xarici ekspertin iştirakı ilə belə bir seminarın keçirilməsində məqsəd Şərqi Avropa və Mərkəzi Asiya ölkələrindən olan mütəxəssis və müəllimlərin peşəkar və yüksək səviyyəli antikorrupsiya tədrisinin imkanlarını gücləndirməkdən, fikir və təcrübə mübadiləsi aparmaqdan ibarət idi.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Əmir Əliyev tədris-seminarı açaraq onun əhəmiyyətindən, son vaxtlar respublikamızda bu sahədə həyata keçirilən mühüm qanunvericilik və digər islahatlardan söz açdı. Professor vurğuladı ki, cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə ulu öndər Heydər Əliyevin siyasətinin əsasını təşkil etmişdir. Həmin mübarizə bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "İndiyədək istər daxili qanunvericilik sahəsində, istərsə də beynəlxalq müqavilələrin iştirakçısı olmaq nöqteyi-nəzərindən Azərbaycan tərəfindən kifayət qədər vacib əhəmiyyətli addımlar atılıb. Korrupsiyaya qarşı qanunvericilik üzrə mühüm istiqamətlər ali məktəblərdə ayrı-ayrı fənlər üzrə proqramlara daxil edilib. Bu sahədə ixtisaslaşmış mütəxəssislərin hazırlanmasına başlanılıb. Bakı Dövlət Universitetinin Hüquq fakültəsində dünya təcrübəsinə uyğun olaraq, "Transmilli cinayət hüququ" magistratura ixtisaslaşması yaradılmaqla, kadrların hazırlanması müvəffəqiyyətlə həyata keçirilir".

BMT-nin Cinayətkarlığa qarşı və Cinayət Ədalət İdarəsinin əməkdaşı Siqall Horovitz bu tədbirin mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Belə mühüm və aktual mövzunun müzakirəsi üçün BDU-nun rəhbərliyinə, o cümlədən Hüquq fakültəsinin professor-müəllim heyətinə təşəkkürünü çatdırdı. O, eyni zamanda, adı çəkilən mövzunun beynəlxalq aləmdə aktual olduğunu xüsusi vurğuladı.

Litvadan olan hüquqşünas, QHT rəhbəri Yaroslav Pavloviç məruzəsini daim informasiya texnologiyalarının tətbiqi ilə həm əyani, həm də təhlili şəkildə apardığını söyləyərək fikirlərini elektron lövhədə izah etdi. O, daim tələbələr arasında aparılan sorğuya əsaslanaraq seminar-dərslərin əyani vəsaitlərlə keçirilməsinin keyfiyyətə müsbət təsir göstərdiyini bildirdi.

Azərbaycan Respublikası Prokurorluğunun Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı Elnur Musayev çıxışında korrupsiya cinayətlərinə yol açan hallara qarşı mübarizə sahəsində prokurorluq orqanlarının səmərəli fəaliyyətindən, dünya dövlətləri təcrübəsinin dərindən öyrənilməsilə ölkədə keçirilən mühüm tədbirlərin əhəmiyyətindən bəhs etdi. Statistik rəqəmlərlə gələcək fəaliyyət istiqamətləri, Azərbaycanın beynəlxalq təşkilatlarda uğurlu işi ön plana çəkildi. O, Azərbaycanın beynəlxalq təşkilatlarla bu sahədəki əməkdaşlığının digər dövlətlər üçün də nümunə ola biləcəyini vurğuladı.

Ukraynadan olan ekspert Aleksandr Mesenko isə diqqəti korrupsiya cinayətkarlığına qarşı mübarizədə tədrisin əhəmiyyətinin olduğuna yönəltdi. Bildirdi ki, buna görə ali təhsil müəssisələri ilə ictimaiyyətin birgə əməkdaşlığı ciddi məsələdir. O, öz ölkəsində bu sahədən faktlar göstərməklə, tədris-seminarın əhəmiyyətinə aydınlıq gətirdi.

Tacikistandan olan nümayəndənin fikrincə, korrupsiya cinayətkarlığına qarşı mübarizədə bütün məsuliyyət heç də hüquq-mühafizə orqanlarının üzərinə düşməməlidir. Burada ictimaiyyətlə QHT-lərin birgə əməkdaşlığı sayəsində məqsədə nail olmaq mümkündür.

Milliyyətcə özbək olan hüquqşünas-ekspert çıxışına maraqlı girişlə başladı. O, Heydər Əliyevin korrupsiyaya və iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsindəki təcrübəsinin keçmiş müttəfiq respublikalarda nümunəyə çevrildiyini xatırlayaraq qeyd etdi ki, dünya arenasında bu bəladan xilas olmaq üçün belə seminar-tədris proqramlarının mühüm əhəmiyyəti var: "Yaxşı xatirimdədir, hələ sovetlər dövründə Azərbaycanın rəhbəri olarkən Heydər Əliyevin aforizmə çevrilmiş bir müdrik kəlamı vardı: "...Prokurorun oğlu niyə prokuror olmalıdır?" Bu o demək idi ki, dəbdə olan Hüquq fakültəsini bitirənlərin sırasında zəhmətkeş ailədə böyüyən gənclər daha çoxluq təşkil etməlidir. Bax, mübarizənin sivil və həm də mühüm vasitələrindən biri o zamanlar üçün sadə əmək adamının yetişdirdiyi gənclərə daha çox yer ayrılması idi. Bunun da səbəbləri vardı. Ümummilli lider Heydər Əliyev də məsələyə məhz bu aspektdən yanaşırdı".

BDU-nun Özbəkistanın paytaxtı Daşkənddə filialının açılması ilə bağlı fikirlərini bildirən qonaq bunun hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını da bildirdi.

İki məruzə, məlumatlandırma-tədris bölməsində işini davam etdirən seminarda tanınmış beynəlxalq və yerli ekspertlərin 15-dək aktual mövzuya həsr olunan məruzələri dinlənildi və fikir mübadiləsi aparıldı.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İsveçrənin dövlət katibi Bakı Ali Neft Məktəbində olub

Bakı Ali Neft Məktəbində (BANM) İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiyalar üzrə dövlət katibi Mauro Dell'Ambrocio ilə görüş keçirilib.



Görüşdə ali məktəbin rektoru Elmar Qasımov, İsveçrənin Təhsil, Araşdırma və İnnovasiyalar üzrə Dövlət Katibliyinin elmi məsələlər üzrə müşaviri Filip Rosli, Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfiri Xanım İbrahimova, İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Filip Ştalder, Cenevrə Universitetinin beynəlxalq əlaqələr üzrə icraçı direktorunun müavini, professor Aleksandr Hedcazi, ABB şirkətinin ölkə üzrə direktoru Rüstəm Qasımov, eyni zamanda BANM-ın məsul əməkdaşları iştirak ediblər.

Rektor Elmar Qasımov qonaqlara ali məktəb haqqında ətraflı məlumat verib. O bildirib ki, bu il ali məktəb öz rekordları ilə daha çox seçilib. Belə ki, I ixtisas qrupu üzrə 700 bal toplayan abituriyentlərin hamısı BANM-ı seçib. Eləcə də Prezident təqaüdünə layiq görülmüş 26 nəfərin hamısı BANM-ın tələbələridir. Hər iki göstərici ali məktəbi ölkə universitetləri arasında lider edib. Elmar Qasımov həmçinin qeyd edib ki, BANM-da təhsilin ingilis dilində olması onun məzunlarının transmilli şirkətlərdə çalışmasını və xarici universitetlərdə təhsil almasını daha da asanlaşdırır.

İsveçrə Konfederasiyasının Təhsil, araşdırma və innovasiyalar üzrə dövlət katibi Mauro Dell'Ambrocio ali məktəb haqqında müsbət fikirlər bildirib. Dövlət katibi qeyd edib ki, onun Azərbaycana səfərinin başlıca məqsədi, xüsusilə təhsil müəssisələrini ziyarət edərək İsveçrə müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasına yardım etməkdir. Bu nöqteyi-nəzərdən BANM mühəndislik sahəsində əməkdaşlıq ediləcək müəssisələr arasında öndə gedə biləcək ali məktəbdir.

Artıq 4 gün ərzində ikinci dəfə ali məktəbi ziyarət etdiyini bildirən İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Filip Ştalder İsveçrənin ABB şirkəti tərəfindən təhsil sahəsinə dəstək çərçivəsində BANM-a investisiya qoyularaq, bu ali məktəbdə xüsusi laboratoriya avadanlıqlarının quraşdırıldığını bildirib.

Rektor Elmar Qasımov isə ABB şirkətinin ölkə üzrə direktoru Rüstəm Qasımovun bu təşəbbüsünü yüksək qiymətləndirərək bu şirkətin timsalında İsveçrə Konfederasiyasına Azərbaycan təhsilinə edilən qiymətli investisiya üçün təşəkkür edib.

Daha sonra qonaqlar ali məktəblə yaxından tanış olmaq üçün onun kampusunu gəziblər. ABB şirkəti tərəfindən quraşdırılan ABB laboratoriyasında proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan tələbələr tərəfindən cənab Mauro Dell'Ambrocioya laboratoriya və oradakı avadanlıqların təqdimatı edilib.

***"Azərbaycan"***

# Məqsəd yeni neft layihəsinin ətraf mühitə mənfi təsirinə yol verməməkdir

"Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin növbəti "Mərkəzi Şərqi Azəri" mərhələsi üçün hazırlanmış Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədlərinin dəqiq icmalı ictimaiyyətə təqdim edilmişdir. Sənədin müzakirəsi AÇG-nin operatoru BP şirkətinin təşkil etdiyi tədbirdə geniş müzakirə olunmuşdur.

Müzakirə iştirakçıları ƏMSSTQ-nin layihə variantına aid rəylərini əvvəlcədən hazırlanmış anketlərdə qeyd edib şirkətin ünvanına göndərəcəklər. Rəylər noyabr ayı ərzində qəbul ediləcək. Layihənin investisiya qərarı yalnız rəylər nəzərə alınmaqla hazırlanan son variant hökumət tərəfindən təsdiq olunandan sonra veriləcək.

Xatırladaq ki, keçən ilin sentyabr ayında AÇG layihəsinin müddəti əsrin ortalarınadək uzadılmışdır. Odur ki, "Mərkəzi Şərqi Azəri" layihənin yeni mərhələsini təşkil edəcək. İndiyədək "Əsrin müqaviləsi" çərçivəsində AÇG müqavilə sahəsində 8 platforma quraşdırılmışdır ki, onlardan 6-sı - "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" hasilat platformalarıdır. Yaxın gələcəkdə AÇG "ailə"sinə "Mərkəzi Şərqi Azəri" platforması da qəbul ediləcək.

Yeni platforma mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında, mərkəzi nöqtədə yerləşəcək. Qurğunun dayaqları suyun təxminən 137 metr dərinliyində qərar tutacaq. Əvvəlki platformalar kimi, "Mərkəzi Şərqi Azəri" də yerli infrastrukturdan istifadə edilməklə, yeni Azərbaycandakı tikinti obyektlərində inşa ediləcək. Bunlar Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu və Bibiheybət ərazisindəki ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsidir. Adətən hər yeni layihə ərəfəsində genişləndirmə işləri aparılan Səngəçal terminalında əlavə qurğular inşa edilməyəcək. Çünki terminalın yeni neft-qaz həcmlərini qəbul etmək üçün kifayət qədər gücü var.

"Mərkəzi Şərqi Azəri" dəniz qurğularının gündə 100 min barelə qədər lay suyu qarışmış neft və 350 milyon standart kubfut qaz hasil etmək kimi texniki prosesləri yerinə yetirməsi nəzərdə tutulur. Tikinti-quraşdırma meydançalarında aparılan inşaat və istismara hazırlıq işlərinin əksəriyyətinin 2019-cu ilin ortalarından 2022-ci ilin ortalarına qədər davam edəcəyi gözlənilir. Bütün işlər tamamlandıqdan sonra hasilata 2023-cü ildə başlanacağı proqnozlaşdırılır. Yeni layihənin ƏMSSTQ sənədləri də Azərbaycan dövlətinin normativ tələbləri, həmçinin BP-nin Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühit Siyasətinə uyğun həyata keçirilmişdir. ƏMSSTQ prosesi layihənin və onun davam etdiyi müddət ərzində əlaqədar işlərin qiymətləndirilməsi üzrə sistematik yanaşmadan ibarətdir. Bu prosesin ümumi məqsədi "Mərkəzi Şərqi Azəri"nin fəaliyyətindən ətraf mühitə və sosial-iqtisadi sahəyə dəyən mümkün mənfi təsirləri müəyyən etmək, azaltmaq və səmərəli şəkildə idarə etməkdir.

Layihə variantlarının ekoloji qiymətləndirilməsi texniki və iqtisadi qiymətləndirmə, o cümlədən SOCAR və HPBS (Hasilatın Pay Bölgüsü Sazişi) podratçıları daxil olmaqla maraqlı tərəflərlə məsləhətləşmələr nəticəsində həyata keçirilmişdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Azərbaycanın Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistanda müxalifət vətəndaş müharibəsinə hazırlaşır

*Sabiq komanda Paşinyana qarşı mübarizəni qiyama çevirməyə çağırış etdi*

***Əvvəli 1-ci səh.***

Ermənistan konstitusiyasına əsasən, Nazirlər Kabinetinin rəhbəri istefa verdikdən sonra qanunverici orqan iki iclasında yeni baş naziri seçə bilməzsə, parlament buraxıla bilər. İndi Paşinyan ikinci dəfə, özü də Nazirlər Kabinetinin rəhbəri vəzifəsinə yenə yeganə namizəd olub.

Ermənistan parlamentinin ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin rəhbəri Knyaz Saroyan bu xüsusda bildirib: "Namizədlərin irəli sürülməsi müddəti başa çatıb. Baş nazir postuna Paşinyandan başqa iddialı yoxdur". Onu da qeyd edək ki, növbəti səsvermə bu günə planlaşdırılıb. Məhz bu gün Ermənistan parlamenti baş naziri seçmək üçün xüsusi iclas keçirəcək.

Ermənistan konstitusiyasına görə, baş nazirin seçilməsi üçün təkrar səsvermə ilk səsvermədən 7 gün sonra keçirilir. İkinci səsvermədə də seçki baş tutmasa, parlament buraxılacaq və növbədənkənar parlament seçkiləri keçiriləcək. Elə Nikol Paşinyanın da istədiyi budur. O, parlamentdə seçilməməyi və qanunverici orqanda üstünlüyü əldə etmək üçün növbədənkənar seçkilərin keçirilməsini planlaşdırır.

Lakin sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyanın rəhbərlik etdiyi qüvvələr bu prosesi əngəlləməyi düşünürlər. Onlar Paşinyana qarşı mübarizəni qiyama çevirməyə çağırış edirlər. Belə ki, onlar ikinci dəfə baş nazir seçilmədiyi təqdirdə parlamentin buraxılmasının qarşısını almağa çalışır və bu xüsusda qanun da qəbul olunub.

Hadisələr Nikol Paşinyan və ona qarşı olan qüvvələr arasında münasibətlərin daha kəskin xarakter aldığını göstərir. Belə görünür ki, qarşıdakı günlər ərzində işğalçı ölkədə ictimai-siyasi gərginlik daha da artacaq. Buna əsas səbəb Paşinyana qarşı olan qüvvələrin sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşməsi, sonuncuların isə yenidən hakimiyyətə iddia etməsidir.

Paşinyan isə Sarkisyan-Koçaryan koalisiyasını yenidən neytrallaşdırmağı düşünür. Amma həm Ermənistan daxilində, həm də Qarabağ separatçıları arasında dəstəyə malik koalisiyanın sərt formada müqavimət göstərməsi gözlənilir və bu da Ermənistanda qarşıdurmanın dərinləşməsi deməkdir. Əsas niyyət separatçı rejimin köməyi ilə Yerevana qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub, güc yolu ilə olsa belə hakimiyyəti qəsb etməkdir. Məhz belə vəziyyət siyasi gərginliyin daha da yüksələcəyini göstərir.

## Paşinyan parlamenti dəyişməkdə israrlıdır

Digər tərəfdən, belə bir vaxtda o da bəlli olub ki, Ermənistanda Seçki Məcəlləsinə dəyişikliklər ikinci dəfə parlamentdə qəbul edilməyib. Parlamentdəki səsvermə zamanı dəyişikliyin lehinə 62 deputat səs verib. Layihənin əleyhinə cəmi iki deputat çıxış edib. Respublika Partiyasının digər üzvləri səsvermədə iştirakdan imtina ediblər. Nəticədə məcəllədə dəyişikliklə bağlı qərarın qəbulu üçün 1 səs çatmayıb. Belə ki, konstitusiyaya görə, Seçki Məcəlləsində dəyişiklik üçün millət vəkillərinin beşdəüçünün lehinə səs verməsi lazımdır ki, bu da 63 səs edir.

Dəyişikliyi "Daşnaksütyun", "Sarukyan bloku" və "Yelk" fraksiyası dəstəkləyib. Respublika Partiyası bunun tam əleyhinə çıxıb. Seçki Məcəlləsində xüsusilə millət vəkilliyinə namizədlərin ərazi siyahılarının ləğv edilməsi istənilir.

Bununla bərabər, parlamentə keçid üçün nəzərdə tutulan minimum keçid həddinin azaldılması təklif edilib. Belə ki, partiyalar üçün bu göstəricinin 5 faizdən 4 faizə, bloklar üçün isə 7 faizdən 6 faizə endirilməsi nəzərdə tutulub. Üstəlik, təklifə əsasən, parlamentdə mütləq şəkildə minimum dörd siyasi qüvvə təmsil olunmalı, müxalif deputatların sayı üçdəbirdən az olmamalıdır. Dəyişikliklər sırasında həmçinin pulsuz efir vaxtının əhəmiyyətli dərəcədə artırılması planlaşdırılıb. Amma Paşinyanın bu istəkləri parlamentdən keçməyib. Məhz bu səbəbdən o, parlamenti dəyişməkdə israrlıdır.

## Ermənistan bölgədə sabitsizlik məkanı olaraq qalır

Lakin qeyd olunduğu kimi, əsasən Respublika Partiyası parlamenti dəyişməyi əngəlləməyə çalışır. Bütün bunlar ölkədə daxili sabitsizliyi daha da gücləndirir. Məsələnin bu tərəfinə nəzər salan rusiyalı ekspert İqor Korotçenko da vurğulayır ki, Ermənistan bölgədə sabitsizlik mənbəyi olaraq qalır.

O, bu ölkədə indi də seçki vasitəsilə dövlət çevrilişini legitimləşdirmək, parlamentə Nikol Paşinyanın tərəfdarlarını seçdirmək yolu ilə onun şəxsi hakimiyyətini möhkəmləndirmək siyasəti yürüdüldüyünü vurğulayıb. Ekspertin fikrincə, Paşinyana hakimiyyətin ötürülməsi ölkəni uzunmüddətli sabitsizlik girdabına sürükləyir: "Belə ki, Paşinyan ölkədə öz şəxsi hakimiyyətini qursa da, korrupsiya ilə mübarizə aparmaq, əhalinin rifahını qaldırmaq kimi əsas vədlərini yerinə yetirməyəcək. Bununla yanaşı, erməni diasporu ölkəyə investisiya qoymaq barədə Paşinyanın çağırışlarına məhəl qoymayıb. Onlar bildirirlər ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalması sərmayələr üçün ciddi siyasi və hərbi təhlükə yaradır. Yəni bütün məsələlər Dağlıq Qarabağ probleminə dirənir, bu problem həllini tapmasa, Ermənistan iqtisadiyyatı indiki vəziyyətdə qalacaq".

Aydındır ki, bu vəziyyətdə Paşinyanın da uzun müddət iqtidarda qala bilməsi ciddi sual altına düşür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq oktyabrın 31-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçisi Gennadi Petrika, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov, Stefan Viskonti və onun şəxsi köməkçisi Küanti de Rankur, eləcə də Endryu Şofer və onun şəxsi köməkçisi Devid Börnşteyn aparıblar.

*Təkrar*

# "Azərişıq" ASC 2018-ci ildə tələb olunan müxtəlif mətbəə məhsullarının satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1 Müxtəlif mətbəə məhsullarının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: "Kapital Bankın" Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 noyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 noyabr 2018-ci il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi
### turizm məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi və konsaltinqi xidmətlərinin satın alınması ilə əlaqədar
### *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT 1.** Turizm məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi və konsaltinqi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç 96 E (Əlaqələndirici şəxs: Vüqar Hüseynov, telefon: (050) 303-50-20) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 manat**
**Dövlət Turizm Agentliyi**

| | |
|---|---|
| **Hesab:** | **AZ33PAHA38060AZNHC0100090832** |
| **VÖEN:** | **1404365471** |
| **Bank:** | **PAŞA Bank ASC** |
| **Kodu:** | **505141** |
| **VÖEN:** | **1700767721** |
| **M/H:** | **AZ82NABZ01350100000000071944** |
| **S.W.İ.F.T:** | **PAHAAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Digər sənədlər:*

Əsas şərtlər toplusunda nəzərdə tutulmuş sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30.11.2018 saat 15:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **14.12.2018 saat 15:00-a qədər** Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç., 96 E ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17.12.2018 15:00 tarixdə** Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami kuç., 96 E ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Texniki Universiteti
### inventarın, avadanlığın və digər maşın və avadanlıqların satın alınması məqsədilə
### *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT - 1.** İnventarın satın alınması.
**LOT - 2.** Avadanlığın satın alınması.
**LOT - 3.** Digər maşın və avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən LOT-lar üzrə öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi ilə həyata keçiriləcəkdir.

**İştirak haqqı: hər LOT üzrə 100 (bir yüz) manat.**

İddiaçılar iştirak haqqı məbləğini aşağıda göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, H.Cavid prospekti, 25-də yerləşən AzTU-dan (əlaqələndirici şəxs: Orxan Hümbətov, telefon (012) 538-94-21) ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

| | |
|---|---|
| **Təşkilat:** | **Azərbaycan Texniki Universiteti** |
| **Hesab:** | **Az12AIIB33070019443307884103** |
| **VÖEN:** | **1300231171** |
| **Hesab:** | **"Kapital Bank" ASC Yasamal filialı** |
| **Kod:** | **200037** |
| **VÖEN (bank):** | **9900003611** |
| **M/H:** | **Az37NABZ01350100000000001944** |
| **SWIFT:** | **Aİ İBAZ 2X** |

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *müəssisənin hüquqi sənədləri;*
- *vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *iştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatın surəti;*
- *bank arayışı rekvizitlərlə birlikdə;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank sənədi;*
- *tender təklifi təminatı (zərflər açıldığı tarixdən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) **30 noyabr 2018-ci il saat 15:00-a** qədər təqdim etməlidirlər.

Tender təklifi və təklifin bank təminatı **14 dekabr 2018-ci il saat 15:00-a** qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **17 dekabr 2018-ci il saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Ölkə Miqyasında Əsas Turizm Marşrutlarının İstiqamətləndirilməsi və Nişana Alınması" işlərinin satın alınması ilə əlaqədar
### *təkliflər sorğusu elan edir*

İştirakçılara təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyənlər əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanından (050) 303-50-20 ala bilərlər.

Satınalma müqaviləsi üzrə ödənişlər köçürmə yolu ilə aparılacaqdır. Malgöndərən (podratçı) tərəfindən təklif olunan mallar və işlərin qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir. Təqdim ediləcək mal, yerinə yetiriləcək iş və xidmətlər əsas şərtlər toplusundakı bütün tələblərə cavab verməlidir. Təkliflər qapalı zərfdə, imzalanıb möhürlənərək 12 noyabr 2018-ci il tarixində saat 12:00-a qədər Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş
### Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqların inkişafına dəstək" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, H.B.Zərdabi pr. 80 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri H.B.Zərdabi pr. 80 ünvanına 8 noyabr 2018-ci il saat 17:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 12 noyabr 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda keçiriləcəkdir.

Əlaqə telefonu: **(012) 434-05-20**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi İKT avadanlıqları və xidmətlərinin satın alınması ilə əlaqədar
### *təkliflər sorğusu elan edir*

İştirakçılara təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyənlər əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanından (050) 303-50-20 ala bilərlər.

Satınalma müqaviləsi üzrə ödənişlər köçürmə yolu ilə aparılacaqdır. Malgöndərən (podratçı) tərəfindən təklif olunan mallar və işlərin qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir. Təqdim ediləcək mal, yerinə yetiriləcək iş və xidmətlər əsas şərtlər toplusundakı bütün tələblərə cavab verməlidir. Təkliflər qapalı zərfdə, imzalanıb möhürlənərək 12 noyabr 2018-ci il tarixində saat 12:00-a qədər Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## 44 ildə planetdə faunanın 60 faizi məhv edilib

Bəşəriyyət 1970-ci illərdən başlayaraq məməlilər, quşlar, onurğalılar və balıqların 60 faizini məhv etmişdir. Bu barədə Dünya Vəhşi Təbiət Fondunun (WWF) hesabatına istinadən "The Guardian" qəzeti xəbər verir. WWF-in London Zooloji Cəmiyyəti ilə birgə hazırladığı Canlı Planet İndeksindən məlum olur ki, 1970-2014-cü illərdə dünya 60 faiz növdən məhrum olmuşdur. 4 il əvvəl bu göstərici 52 faiz idi.

Təbiət üçün əsas təhlükə kənd təsərrüfatı ehtiyacları naminə faunanın təbii yaşayış mühitinin məhv edilməsidir. Hazırda quru ərazilərin dörddə üçü insan tərəfindən zəbt edilmişdir. Başqa bir problem heyvanların qida naminə qırılmasıdır. İnsanların ov etməsi nəticəsində məməlilərin azı 300 növü tamamilə məhv olmuşdur. Okeanlar isə əksinə, balıqla doludur, amma onun yarısı süni şəkildə yetişdirilir. Kimyəvi çirklənmə də bu məsələdə neqativ rol oynayır.



Ən acınacaqlı vəziyyət Cənubi və Mərkəzi Amerikada yaranmışdır. Orada yabanı meşələrin daim məhv edilməsi üzündən onurğalıların populyasiyası 89 faiz azalmışdır.

Tədqiqatçılar güman edirlər ki, sivilizasiya tarixi boyunca məməlilərin 83 faizi və bitkilərin yarısı məhv edilmişdir. Hətta bu proses bu gün dayandırılsa belə, təbiətin bərpası üçün 5-7 milyon il tələb olunacaq.

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Rəqəmsal marketinq xidmətlərinin satın alınması ilə əlaqədar
### *təkliflər sorğusu elan edir*

İştirakçılara təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyənlər əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanından (050) 303-50-20 ala bilərlər.

Satınalma müqaviləsi üzrə ödənişlər köçürmə yolu ilə aparılacaqdır. Malgöndərən (podratçı) tərəfindən təklif olunan mallar və işlərin qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir. Təqdim ediləcək mal, yerinə yetiriləcək iş və xidmətlər əsas şərtlər toplusundakı bütün tələblərə cavab verməlidir. Təkliflər qapalı zərfdə, imzalanıb möhürlənərək 12 noyabr 2018-ci il tarixində saat 12:00-a qədər Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Turizm üzrə təlim və səyahət xidmətlərinin satın alınması ilə əlaqədar
### *təkliflər sorğusu elan edir*

İştirakçılara təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyənlər əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanından (050) 303-50-20 ala bilərlər.

Satınalma müqaviləsi üzrə ödənişlər köçürmə yolu ilə aparılacaqdır. Malgöndərən (podratçı) tərəfindən təklif olunan mallar və işlərin qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir. Təqdim ediləcək mal, yerinə yetiriləcək iş və xidmətlər əsas şərtlər toplusundakı bütün tələblərə cavab verməlidir. Təkliflər qapalı zərfdə, imzalanıb möhürlənərək 12 noyabr 2018-ci il tarixində saat 12:00-a qədər Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə Nizami küç. 96 E ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Fuad Əkbərova atası

**ELDAR ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin idarə heyətinin sədr müavini Hüsnü Quliyevə əzizi

**ŞƏRƏF XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Dövlət Universitetinin rektorluğu və kollektivi Gəncə şəhər prokuroru Fazil Həsənəliyevə qayınanası

**ŞƏRƏF XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Dövlət Universitetinin rektorluğu və kollektivi Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin "Azdövsutəslayihə" İnstitutunun direktoru Elbrus Paşayev və institutun kollektivi Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya və Azərbaycan Texniki Universiteti Metallurgiya fakültəsinin dekanı Aqil Babayevə əzizləri

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə şəhərindən Tapdıq Mahmudov, Rauf Rzayev, Kəramət Əliyev, Vəli Abdullayev, Akif Nəbiyev və Akif Əliyev Gəncə şəhər prokuroru Fazil Həsənəliyevə qayınanası

**ŞƏRƏF XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Hindistanda dünyada ən hündür heykəl açıldı

Dünən Hindistan hökumətinin başçısı Narendra Modi dünyada ən hündür heykəlin açılışını etmişdir. Abidə Hindistan milli azadlıq hərəkatının 1950-ci ildə vəfat etmiş iştirakçısı Villabhai Patelə həsr olunmuşdur. Bu barədə yerli KİV xəbər verir. Qucarat ştatında təntənəli açılış mərasimini ölkənin bütün telekanalları yayımlamışdır.

Məlumata görə, heykəlin hündürlüyü 182 metr, postamentlə birlikdə isə 240 metrdir. Beləliklə, abidə Nyu Yorkdakı Azadlıq heykəlindən iki dəfə böyükdür.




BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8402
Sifariş 3195